**Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

17 MAY 2019-cu il
№ 88 (3986)
Qiymətı 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

# 18 İLDƏN SONRA ABŞ-da YENİDƏN QARABAĞ SAZİŞİ İMKANI - AMERİKA VƏ ERMƏNİSTANIN TƏHLÜKƏSİZLİK ŞEFLƏRİ GÖRÜŞDÜ

səh. 9


İxrac üçün xaricdən sifarişlər də gəlməyə başlayıb

## Prezident xaricdən şpris idxalından Azərbaycanın canını qurtardı

səh. 2

Azərbaycanın son hərbi təlimləri Paşinyanın pozucu antisülh bəyanatlarına cavab kimi... səh. 3

Sanksiyalar İran iqtisadiyyatını çökdürür, Azərbaycan-İran ticarət əlaqələrində maraqlı proses başlayır... səh. 6

Şərqi Aralıq dənizində tapılmış neft-qaza görə qardaş Türkiyəyə qarşı böyük oyun başlayıb... səh. 7

"Unibank" Prezidentin Fərmanı əsasında kompensasiya almış jurnalistdən hələ də aylıq ödəniş tələb edir səh. 11

Jurnalistin peşə fəaliyyəti başında təhqir olunmasına Mətbuat Şurası da reaksiya verdisə... səh. 4

Turistlər Azərbaycandan əsasən bal və çay aparır - qiymətlər, ya istehsal artacaq? səh. 14

Gündəmdə qadınların "ACE"dən zəhərlənmələri... səh. 15

Ceyranbatan anbarında kütləvi balıq tələfatı - Bakı əhalisi üçün təhlükə varmı... səh. 14





**Avropa komissarının Azərbaycan barədə yanlışı - iqtisadi inkişafsız hansı insan haqları ola bilər?** səh. 5

**QHT-lərin xaricdən pul almasına ciddi nəzarət Avropa Birliyini niyə narahat edir...** səh. 3

**Paşinyanın yersiz sevinci - Çin Prezidentinin Türkiyəyə taktiki mesajı, ya uydurma genosidi ciddi tanımaq niyyəti...** səh. 8

**Beynəlxalq hesabatda banklarımıza ən pis qiymət - MDB-də tək Tacikistandan yaxşıyıq...** səh. 10



**Dünya ermənicilyində yeni böhran - yeniyetmələrin dindən dönüşü və İstanbul patriarxının riyakarlığı...** səh. 5



**Valideynlərin hər fakta görə məktəblərə "kameramanlı hücumları" artır...** səh. 12



**Aqrar sığortanın zəifliyinin əsas səbəblərindən biri - aqrar sığorta kadrlarının çatışmazlığı...** səh. 13



**Müddəti bitmiş avtomobillər ekologiyanı məhv edir, əsasən 05, 06 "Jiquli"lər...** səh. 13



### Prezident İlham Əliyev Çexiya Parlamenti Deputatlar Palatası sədrini qəbul edib

**Prezident İlham Əliyev mayın 16-da Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlət başçısı Azərbaycan Respublikası ilə Çex Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edib. Çex Respublikası Prezidentin Azərbaycana səfərini xatırlayan Prezident İlham Əliyev parlamentlərarası əlaqələrin genişlənməsinin də münasibətlərin inkişafına töhfə verdiyini deyib, iqtisadi əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu bildirərək, Çex Respublikası hökuməti üzvlərinin də Azərbaycana uğurlu səfər etdiklərini bildirib və iqtisadi, ticarət, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib. Prezident İlham Əliyev Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli keçəcəyinə və əlaqələrimizin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyi ifadə edib.

Dövlət başçısı Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarına görə minnətdarlığını bildirərək, onun da salamlarını Çexiya Prezidentinə çatdırmağı xahiş edib.

### Almaniya naziri ABŞ-İran müharibəsinin tezliklə başlanacağı barədə xəbərdarlıq etdi...



**Almaniyanın Xarici işlər naziri Hayko Maas Orta Şərqdə durumun çox ciddi olduğunu deyib.**

Baki-xeber.com xəbər verir ki, nazir bölgədə hərbi gərginliyin artmasının qarşısını almaq üçün hər şey edəcəklərini bildirib.

Federal məclisdə İranla əldə olunan nüvə razılaşmasına dair keçirilən iclasda danışan nazir bildirib ki, nüvə razılaşması uğursuz olacağı halda region müharibə ocağına çevriləcək. "Yaxın Şərqdə vəziyyət çox ciddidir" deyən Maas, bölgədə müharibə başlayarsa, bunun xüsusilə Avropanın təhlükəsizliyi üçün ağır nəticələr doğura biləcəyilə bağlı xəbərdarlıq edib.

# Prezident xaricdən şpris idxalından Azərbaycanın canını qurtardı

## *İxrac üçün xaricdən sifarişlər də gəlməyə başlayıb*

**Prezident İlham Əliyev mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed Co" şpris istehsalı zavodunun açılış mərasimində iştirak edib.**



Dövlət başçısı zavodu işə salaraq, istehsal prosesi ilə tanış olub və zavodun kollektivi ilə görüşərək xatirə şəkli çəkdirib.

Müəssisənin kollektivini salamlayan Prezident İlham Əliyev deyib ki, hər bir yeni müəssisənin açılışı onu sevindirir:"Çünki hər bir müəssisənin açılışı yeni iş yerləri deməkdir. Mənə verilən məlumata görə, burada ilkin mərhələdə 30, sonra isə 150 yeni iş yeri yaradılacaq. Beləliklə, burada işsizliklə bağlı problemlər öz həllini tapacaq.

Bütövlükdə Pirallahı rayonunda işsizliklə bağlı problem, demək olar ki, yoxdur…Bu zavodda bizim siyasətimiz öz əksini tapır. Çünki idxaldan asılılığı azaltmaq bizim üçün əsas məsələlərdən biridir. Bu günə qədər biz şprisləri xaricdən alırdıq, indi isə buna ehtiyac qalmır, əksinə, verilən məlumata görə, artıq xaricdən sifarişlər də alınır. Beləliklə, həm daxili tələbat tam ödəniləcək, həm də biz öz yeni məhsulumuzu xaricə ixrac etmiş olacağıq. Bu, sənayemizin inkişafına verilən töhfədir…

Biz bir neçə il bundan əvvəl bu zavodun yaradılmasını bəlkə də təsəvvür edə bilməzdik, xüsusilə Pirallahı rayonunda. Burada ümumiyyətlə qeyri-neft sektoru ilə bağlı işlər demək olar ki, yavaş gedirdi. Ancaq bu gün bu zavod reallıqdır. Bu, Pirallahı Sənaye Parkında birinci zavoddur. Çünki burada bir neçə müəssisə yaradılacaq.

**Hazırda tikilməkdə olan böyük dərman preparatları zavodunun fəaliyyətə başlaması nəticəsinə daha çox iş yerləri açılacaq və biz dərman preparatlarının idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik.**

### Daha bir ABŞ şəhəri 28 mayı Azərbaycanın milli günü elan etdi

**ABŞ-ın Nyu Meksiko ştatının Albukerke şəhəri 28 may 2019-cu il tarixini "Azərbaycan Milli Günü" elan edib. Bununla bağlı şəhər meri Timoti M. Keller (Timothy M. Keller) tərəfindən müvafiq bəyannamə imzalanıb.**




Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğuna göndərilmiş bəyannamədə Azərbaycan xalqının müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı, həmin respublikanın qısa müddətdə böyük sayda mütərəqqi islahatlara imza atdığı, nəinki müsəlman dünyasında ilk dəfə, eləcə də dövrün bir sıra qabaqcıl dövlətlərindən də öncə qadınlara səsvermə hüququ verdiyi vurğulanır.

Bəyannamədə Azərbaycanın 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ABŞ-ın ölkəmizi tanıyan və onunla diplomatik münasibətlər quran ilk dövlətlərdən biri olduğu bildirilir. Ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra öz suverenliyini və müstəqilliyini gücləndirdiyi, dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrildiyi, bu gün regionun ən böyük iqtisadiyyata malik ölkəsi və ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğu vurğulanır.

Sənəddə, həmçinin, ABŞ və Albukerke şəhəri də daxil olmaqla, bütün dünyada yaşayan azərbaycanlıların 28 may tarixini Azərbaycanın Milli Günü kimi bayram edərək, öz ata-babalarının Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionlarında demokratiyanın yayılmasına verdiyi töhfələri xatırladığı və Azərbaycan Respublikasının azad və müstəqil dövlət kimi önəmli uğurlarını qeyd etdiyi bildirilir.

Bəyannamənin sonunda 28 may tarixi Albukerke şəhərində "Azərbaycan Milli Günü" elan edilir.

### Bakıda ABŞ-Azərbaycan İqtisadi Tərəfdaşlıq Komissiyasının 4-cü iclası keçiriləcək

Mayın 17-də Bakıda ABŞ-Azərbaycan İqtisadi Tərəfdaşlıq Komissiyasının 4-cü iclası keçiriləcək.

Maliyyə Nazirliyindən "Trend"ə verilən məlumata görə, Komissiyanın gündəliyinə iki ölkə arasında ticarət əlaqələrinin inkişafı və gücləndirilməsi, investisiya imkanları, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, habelə turizm, vergi, gömrük, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, əmək məsələləri, əqli mülkiyyət və digər sahələrdə əməkdaşlığa dair məsələlər daxil edilib.

İclasda, həmçinin, Azərbaycan və Birləşmiş Ştatlar arasında iqtisadi tərəfdaşlığın mövcud vəziyyəti, Komissiyanın 3-cü iclasından sonrakı dövrdə görülmüş işlər və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə olunacaq.

**İclasda iştirak etmək üçün ABŞ Dövlət Katibinin İqtisadiyyat və Biznes Məsələləri üzrə köməkçisinin 1-ci müavini Peter Haasın başçılıq etdiyi nümayəndə heyəti Bakıya gələcək.**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

**Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.**

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

**Məlum olduğu kimi, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, mayın 20-dən 24-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.**

# Azərbaycanın son hərbi təlimləri Paşinyanın pozucu antisülh bəyanatlarına cavab kimi...

## ***Aydın Mirzəzadə:*** *”Paşinyan nə qədər pozucu xarakterli bəyanatlar versə də, Ermənistanın narahat olmasına kifayət qədər əsaslar var”*



*”Ehtiyat edirlər ki, keçirilən hərbi təlimlər sonrakı mərhələdə hərbi əməliyyatlara keçə bilər”*

Təlimin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsidir. Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunacaq.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən, şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək. Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

O da məlumdur ki, Ermənistanın Baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ danışıqları ilə bağlı sərsəm açıqlamalar verməkdə davam edir. O, Azərbaycanla Ermənistan arasında atəşkəsin imzalanmasının 25 illiyi ilə əlaqədar verdiyi bəyanatda qeyd edib ki, guya separatçı qurum indiyə qədər danışıqlarda iştirak etmədiyinə görə münaqişə həll edilməyib. Paşinyan yenə əvvəlki ritorikadan çıxış edərək separatçı qurumun danışıqlara qatılmasını qabardıb. Bu isə Dağlıq Qarabağ danışıqlarının ruhuna zidd bir yanaşmadır. O baxımdan, Azərbaycan Ordusunun genişmiqyaslı hərbi təlimlərə hazırlaşması Paşinyanın Qarabağla bağlı məlum bəyanatına cavab tədbiri sayıla bilərmi?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, Azərbaycan hər dəfə hərbi təlimlər keçirəndə Ermənistan bundan narahat olur:** "Azərbaycanın siyasətində vaxtaşırı daha çox hərbi şəxsi heyət və texnikanın cəlb edilməsi ilə hərbi təlimlərin keçirilməsi nəzərdə tutulub. Keçirilən hər bir hərbi təlim Ermənistanda çox böyük narahatlığa səbəb olur. Ehtiyat edirlər ki, keçirilən hərbi təlimlər sonrakı mərhələdə hərbi əməliyyatlara keçə bilər. Eyni zamanda, bütün bunlar Ermənistan cəmiyyətində hakimiyyətə böyük bir inamsızlıq yaradacaq. Çünki Ermənistanın bu gün Azərbaycana əks qoya biləcək hərbi potensialı yoxdur. Ona görə də Paşinyan nə qədər pozucu xarakterli bəyanatlar versə də, Ermənistanın narahat olmasına kifayət qədər əsaslar var. Çünki Azərbaycan hərbi qüdrətini artırmaqla, işğal altında olan torpaqların azad edilməsi üçün ciddi hazırlıq aparır. Ona görə də Ermənistan hər an bu hərbi əməliyyatların aparılmasına hazır olmalıdır. Azərbaycan isə bir müstəqil dövlət olaraq suveren hüquqlarından istifadə edərək hərbi qüdrətini artırır, yeni silahlar əldə edərək ordunun gücünü artırır. Ermənistan bilməlidir ki, Azərbaycan heç vaxt torpaqların işğal altında qalması ilə razılaşmayacaq. Paşinyan anlamalıdır ki, separatçı qurum danışıqlarda tərəf olmayacaq. Onun bununla bağlı səsləndirdiyi fikirlərin heç bir əsası yoxdur".

***Vidadi ORDAHALLI***

---

**Avropa İttifaqı Azərbaycanda insan hüquqları və demokratiya ilə bağlı vəziyyətə dair illik hesabat yayıb. Brüsseldə Azərbaycanın dövlət başçısı İlham Əliyevlə Aİ Şurasının sədri Donald Tuskun görüşündən dərhal sonra qurumun rəsmi saytında dərc edilən hesabatda bildirlir ki, Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyət hələ də narahatlıq doğurur.**

# QHT-lərin xaricdən pul alması ciddi nəzarət Avropa Birliyini niyə narahat edir...

## ***Rauf Zeyni:*** *”Almaniya, İtaliya və Fransa kimi ölkələrdə onların mənafelərinə zidd olan istənilən məsələni qanunla qadağan edirlər”*



*”Dövlətin özü milli QHT-lər üçün donor rolunda çıxış edir”*

Avropa Birliyi ölkəmizdə guya insan haqları ilə bağlı vəziyyətin qənaətbəxş olmadığını bir sıra amillərlə izah etməyə çalışır.

Xüsusilə də vətəndaş cəmiyyəti institutları ilə bağlı vəziyyətin onların ürəyincə olmadığına dair bir sıra faktlar sadalanır. Sitat: "Fundamental sərbəst toplaşmaq, söz və birləşmək azadlığı və hakimiyyət orqanları tərəfindən opponent və ya opponent hesab edilənlərin təqibi davam edir. Vətəndaş cəmiyyəti üçün kiçildilmiş fəaliyyət dairəsi məhdudlaşdırıcı qanunvericiliklə, o cümlədən, xaricdən maliyyələşdirmə üzrə müddəalarla daha da sıxılıb...".

Məlum hesabatda Azərbaycanın rəsmi dairələrinin insan hüquq və azadlıqlarının qorunması istiqamətində atdığı müsbət addımlardan da bəhs olunur: "Aİ-nın Bakıdakı Nümayəndəliyi insan hüquqları ilə bağlı təcili məsələlərin ünvanlanması üçün Ədliyyə və Daxili İşlər nazirlikləri ilə işçi səviyyəsində münasibətlər qurub, humanitar mahiyyətli bir sıra müraciətlər təqdim edib. Üzv dövlətlərlə yaxın əməkdaşlıqda Aİ Nümayəndəliyi siyasi məhbuslar, müxalifətdən olan fəalların inzibati qaydada saxlanması kimi cari halları yaxından yoxlayıb, müxalifətdən olan tərəflərin vəkilləri və qohumları, nümayəndələri, vətəndaş cəmiyyəti təşkilatları, eləcə də dövlət qurumları ilə görüşlər keçirib. Ölkədə insan hüquqları ilə bağlı vəziyyəti müzakirə etmək məqsədilə Ombudsman Aparatında bir sıra görüşlər keçirilib".

Maraqlıdır ki, Avropa İttifaqı Azərbaycanın öz təhlükəsizliyini, stabilliyini qorumaq məqsədilə qanunvericiliyə lazım bildiyi əlavələr etməsini insan azadlıqlarının məhdudlaşdırılması kimi qələmə verir. Məlumdur ki, bu zərurət təsadüfən yaranmayıb. Azərbaycanın əlaqədar qurumlarının yaydığı məlumatlardan bəlli olub ki, məhz xaricdən maliyyələşən bəzi QHT-lərin xətti ilə ölkədə təxribatlar törətmək, əhalini kütləvi itaətsizliyə çağırmaq kimi planlar olub. Belə olan halda, Azərbaycanın qabaqlayıcı tədbirlər görərək qanunvericiliyinə etdiyi dəyişiklik və əlavələr niyə Avropa İttifaqını ciddi narahat etməlidir?

**Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avropa İttifaqının bu mövqeyi kökündən yanlışdır:** "Çünki öz müstəqilliyini, təhlükəsizliyini qorumağa borclu olan istənilən dövlət istədiyi qanunları qəbul edə bilər. Azərbaycan da bundan kənar nəsə etməyib. Öz qanunvericiliyinə bəşəri mahiyyət daşıyan, heç bir halda sivil dünyanın tələblərinə zidd olmayan əlavələri edib. Bu baxımdan da bizim qanunvericiliyimizə edilən əlavələrin insan haqlarının məhdudlaşdırılması ilə zərrə qədər də əlaqəsi yoxdur. Bu, dövləti və milli maraqlardan irəli gələn addım olub. Avropanın özündə olan dövlətlərdə də belə hallarla tez-tez rastlaşılır. Məsələn, Almaniya, İtaliya və Fransa kimi ölkələrdə onların mənafelərinə zidd olan istənilən məsələni qanunla qadağan edirlər. Bunun üçün heç kimlə məsləhətləşməyə də zərurət görmürlər. Hətta elə faktlar var ki, dünyanın demokratikləşməsi istiqamətində atılan addımların tərkib hissəsi sayılan konvensiyalara məhz Avropanın bəzi ölkələri qadağa qoyub. Deyiblər ki, bu onların marağına uyğun deyil. Necə ola bilir ki, bu cür addımları atanlar bizi indi insan haqlarını məhdudlaşdırmaqda günahlandırırlar? Çox maraqlıdır ki, bu cür nüfuzlu təşkilatlar lazım olan məsələlərin üstünə heç bu şəkildə sərt getmirlər. Azərbaycanın ərazisi işğal olunub, sayı milyonla ölçülən köçkün-qaçqını var. Niyə onlar bundan, Ermənistanın BMT qətnamələrinə əməl etməməsindən danışmırlar?"

Rauf Zeyninin sözlərinə görə, Azərbaycanda QHT-lərin xaricdən maliyyələşməsi uzun müddət mümkün olub: "Sonra biz gördük ki, bu vasitə ilə Azərbaycana ciddi təzyiqlər olunur. Azərbaycan hakimiyyəti bunun alternativini də təklif edir. Dövlətin özü milli QHT-lər üçün donor rolunda çıxış edir. Onların maliyyələşməsini həyata keçirirsə, bunun harası insan haqlarına zidd oldu?

***Məhəmmədəli QƏRİBLİ***

# Jurnalistin peşə fəaliyyəti başında təhqir olunmasına Mətbuat Şurası da reaksiya verdisə...

**Jurnalistlərin işi problemləri obyektiv şəkildə ətraflı araşdırmaq, qarşı tərəfin də mövqeyini öyrənməklə işıqlandırmaqdır. Lakin bəzən jurnalist yazdığı yazıya görə müxtəlif vəzifəli şəxslərin hücumlarına məruz qalır. AFN saytının əməkdaşı, həmkarımız Həbibə Abdulla kimi.**

Məlum olduğu kimi, Həbibə Abdulla müəllimlər tərəfindən təhqir olunub. Xanım jurnalist Gəncə Dövlət Universitetinin Etika komissiyasının və Tədrisə nəzarət komissiyasının sədri Əliqulu Quliyev, həmçinin, Bakı şəhərindəki 175 saylı orta məktəbin direktoru Tural Mirzəliyev tərəfindən təhqirə və hədə-qorxulara məruz qalıb. O bu barədə ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya etdiyi müraciətdə geniş bəhs edib.



## *Həbibə Abdulla: ”Ümid edirəm ki, hər iki vəzifəli şəxs tərəfindən təhqirlərə, hədə-qorxulara məruz qalmağımla bağlı əlaqədar qurumlar lazımi addımlar atacaqlar”*

H.Abdullanın müəllimlər tərəfindən təhqirlərə, hədə-qorxulara məruz qalması faktına Azərbaycan Mətbuat Şurası da reaksiya verib. Qeyd edək ki, H.Abdulla qarşılaşdığı problemlə bağlı Azərbaycan Mətbuat Şurasına açıq məktubla müraciət edib.

Azərbaycan Mətbuat Şurası jurnalist H.Abdullanın müəllimlər tərəfindən təhqir olunması ilə bağlı bəyanat yayıb. Qurumun yaydığı bəyanatda bildirilir ki, söz və ifadə azadlığının təmin olunduğu, informasiya əldə edilməsi sahəsində təkmil qanunverilicik bazasının yarandığı Azərbaycanda bu ali dəyərlərə uyğun məsuliyyət kateqoriyaları və mexanizmləri müəyyənləşib. "Mövcud durumda hər kəsin, xüsusən məmurların, tutduğu mövqe və status ictimai əhəmiyyət daşıyan, cəmiyyətin diqqət mərkəzində olan vəzifəli şəxslərin üzərinə düşən konkret öhdəliklər var. Dövlətə, Vətənə sədaqət, dürüstlük və vicdanlılıq meyarları həmin öhdəliklərə yanaşma tərzinə əsasən ölçülür.

Cəmiyyətin informasiya ilə təminatında iki qütb iştirak edir ki, bunlardan biri jurnalistlərdirsə, digəri informasiya daşıyıcıları olan hüquqi və fiziki şəxslərdir. Bu iki qütbün bir-birilə münasibətlərinin düzgün qurulması, qarşılıqlı əməkdaşlığa əsaslanması yalnız etik dəyərlər baxımından prioritet göstərici deyil, eyni zamanda, qanunlarımızın tələbidir. Buna görə onların hər ikisinin fəaliyyətinə həssas yanaşması, daşıdıqları missiyanın məsuliyyətini dərindən dərk etməsi mütləq şərtdir. Təəssüf ki, cəmiyyətimizdə bunu nəzərə almayanlar da var. "Azerbaijan Favorite News" (www.afn.az) saytının əməkdaşı H.Abdulla ilə bağlı yaşanmış olay bunu deməyə əsas verir. H.Abdulla Azərbaycan Mətbuat Şurasına ünvanladığı açıq məktubunda Gəncə Dövlət Universitetinin Etika komissiyasının və Tədrisə nəzarət komissiyasının sədri Əliqulu Quliyev, həmçinin, Bakı şəhərindəki 175 saylı orta məktəbin direktoru Tural Mirzəliyev tərəfindən təhqir olunduğunu, hədə-qorxulara məruz qaldığını bildirib. Onun məsələ ilə bağlı izahatlarından gəlinən qənaət bundan ibarətdir ki, jurnalist peşə öhdəliklərinə uyğun işin icrasına məsuliyyətlə yanaşdığı halda, nalayiq münasibətlə üzləşib.

Mətbuat Şurası jurnalistlərin səlahiyyətlərindən irəli gələn fəaliyyəti yerinə yetirmələri zamanı hər hansı xoşagəlməz rəftarla, qanunsuzluqla üzləşmələri faktlarını qətiyyətlə pisləyir. Şuranın H.Abdulla ilə bağlı duruma yanaşması da eyni mövqedən qaynaqlanır.




*”MŞ-yə ünvanladığım açıq məktuba MŞ rəhbərliyinin dərhal reaksiya verməsi onu göstərdi ki, bu qurum jurnalistlərin üzləşdikləri problemlərə həssas yanaşır və onun həllinə çalışır”*

Heç bir halda cəmiyyətdə elə təəssürat yaranmamalıdır ki, hansısa media orqanının əməkdaşı peşə vəzifəsini icra edərkən təhqirə və hədə-qorxuya məruz qala bilər. Buna dair şübhənin olması belə demokratik cəmiyyət quruculuğu prinsiplərinə zidd təmayüldür. Tutduğu statusdan asılı olmayaraq, hər bir vəzifə sahibinin məsələni məhz bu kontekstdə dəyərləndirməsi mütləqdir" - deyə sənəddə vurğulanır.

Mətbuat Şurası müvafiq dövlət qurumlarını jurnalist H.Abdulla ilə bağlı məsələni diqqətdə saxlamağa, insidenti dərindən araşdırmağa çağırıb. Şura əmindir ki, günahkarların qanunlarımız çərçivəsində məsuliyyət daşımalarının təmin olunmasına həssas yanaşılacaq, bu istiqamətdə zəruri ölçü götürüləcək.

Həmkarımız H.Abdulla "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Mətbuat Şurasının hadisəyə operativ reaksiya verməsi məsələnin həllinə müsbət təsir göstərəcək. "Mənim Mətbuat Şurasına (MŞ) ünvanladığım açıq məktuba MŞ rəhbərliyinin dərhal reaksiya verməsi onu göstərdi ki, bu qurum jurnalistlərin üzləşdikləri problemlərə həssas yanaşır və onun həllinə çalışır. Üzləşdiyim problemə həssas yanaşdıqlarına və operativ reaksiya verdiklərinə görə MŞ sədri Əflatun Amaşov başda olmaqla hər kəsə təşəkkür edirəm. Ümid edirəm ki, hər iki vəzifəli şəxs tərəfindən təhqirlərə, hədə-qorxulara məruz qalmağımla bağlı əlaqədar qurumlar lazımi addımlar atacaqlar. Mən bir jurnalist kimi konkret faktlar araşdırmışam, qarşı tərəfin də mövqeyini öyrənərək bunu yazıda əks etdirmişəm.

*”Bütün bunlarla bağlı daxili işlər naziri Ramil Usubova və baş prokuror Zakir Qaralova da açıq məktub ünvanlamışam”*

Çox təəssüf ki, son vaxtlar jurnalistlər bəzi vəzifəli şəxslər tərəfindən tez-tez təhqir və təhdid hədəfi olurlar. Bu durum əfsuslar olsun ki, məndən də yan keçməyib. Müəllim adı daşıyan insanlar haqlarında peşə etikasının əsası olan qarşı tərəfin mövqeyi prinsipini qorumaqla yazdığım yazıya görə mənə ağır təhqir ünvanladılar. Tural Mirzəliyevin məktəbində baş verdiyi bildirilən insident haqda özünün rəyini alaraq yazı yazmışdım, gedib şəxsimə qarşı əxlaq söhbəti edib. Bu haqda Təhsil Nazirliyi rəsmiləri ilə söhbətim oldu, çox təəssüf ki, şəxsi söhbətlərdə direktorun uyğun rəftar sərgiləmədiyini dedilər, amma rəsmi mövqe bildirmədilər. Mən direktorun şəxsi həyatı haqda yazı yazmamışdım, onu nəinki təhqir, heç tənqid də etməmişdim o yazıda, amma təhqirlə cavab verdi. Əliqulu Quliyev haqda da daxil olan şikayət məktubunu özünün rəyini almaqla işıqlandırmışam, 1 ildən də çox müddət keçdikdən sonra zəng edib ağır sözlərlə məni təhqir edib, yazını çıxarmayacağım təqdirdə "başıma oyun açacağı" ilə hədələyib. Özü də GDU-nun Etika komissiyasının sədridir. Bütün bunlarla bağlı daxili işlər naziri Ramil Usubova və baş prokuror Zakir Qaralova da açıq məktub ünvanlamışam. Ümid edirəm ki, bu qurumlar tərəfindən mənə qarşı baş verənlər ətraflı şəkildə araşdırılacaq və məsələyə hüquqi qiymət veriləcək" - deyə H.Abdulla qeyd etdi.

***İradə SARIYEVA***

**"Şərq tərəfdaşlığı" proqramının 10 illiyinə həsr olunmuş tədbirdə bir çoxu Avropa İttifaqı ilə Azərbaycan arasında sazişin imzalanacağını gözləyirdi. Lakin bu baş verməyib. Bunun niyə baş vermədiyi barədə suala cavabı Avropa İttifaqının genişlənmə üzrə komissarı Yohannes Hahn verib. Cənab Hahn deyib:**



*"Azərbaycan kimi ölkəyə iqtisadi inkişaf lazımdır ki, öz vətəndaşlarının pozulmuş insan haqlarını təmin etsin"*

# Avropa komissarının Azərbaycan barədə yanlışı - iqtisadi inkişafsız hansı insan haqları ola bilər?

## Qabil Hüseynli: *"Həmin prinsipin pozulmasına görə milyonlarla vətəndaşımızın elementar insan haqları tapdanıb"*

"... Azərbaycan diqqətini daha çox bizim üçün də mühüm olan iqtisadi tərəfə yönəldib. Lakin bizim bütün partnyorlarımızla sazişlərimizdə insan haqlarına dair fəsil var. Bu məsələdə daha önəmli olan keyfiyyət, daha az önəmli olan sürətdir. Biz Azərbaycanla həm Avropa İttifaqı, həm də Azərbaycan üçün həlledici əhəmiyyətə malik sazişə dair danışıqların son mərhələsindəyik. Biz bu danışıqlara 2015-ci ildə başlamışıq. Odur ki, mənim üçün bu sazişin mayda və ya iyunda hazır olması önəmli deyil. Düşünürəm ki, bu, qarşıdan gələn bir-iki həftədə həll olunacaq".

Göründüyü kimi, Avropa komissarı dolayısı ilə demək istəyir ki, sazişin imzalanmasında olan gecikmələrlə bağlı bir səbəb də insan haqları ilə bağlı məsələdir. Maraqlıdır ki, cənab Hahn bu fikrini Azərbaycanın guya yayındırıcı taktiki gediş etdiyi ilə əsaslandırmağa çalışır və bu xüsusda uğursuz bir müqayisə aparır. Deyir ki, Azərbaycan əsasən iqtisadi aspektlərə daha çox önəm verir. Ola bilər ki, iqtisadi rifah və insan haqları ilə bağlı məsələnin bərabər addımlaması mümkün olmasın. Hardasa biri digərindən geridə qalsın. Ancaq bu da danılmaz faktdır ki, iqtisadi rifah olmadan heç bir halda insan haqlarından danışmağa dəyməz.

Politoloq Qabil Hüseynli də **hesab edir ki, Azərbaycanın tutduğu yol, yürütdüyü siyasət doğrudur:** "Mən hesab edirəm ki, məlum sazişlə bağlı fikir ayrılığının olması heç də sırf iqtisadi amillərlə bağlı deyil. Burada Azərbaycanın başlıca tələbi ərazi bütövlüyümüzlə bağlı müddəanın öz əksini tapmasıdır. Azərbaycanın iqtisadi məsələlərə xüsusi önəm verməsi Avropanın özü üçün də olduqca vacibdir. Çünki bizim təşəbbüskarı olduğumuz TANAP, Bakı-Tiflis-Ceyhan, Bakı-Supsa enerji layihələri, Bakı-Tiflis-Qars dəmir yolu xətti kimi layihələr Avropanın enerji təminatı və logistik imkanlarının genişləndirilməsində mühüm əhəmiyyətə malikdir. Əlbəttə, siyasi azadlıqlarla bağlı məsələ də həllini tapmalıdır. Hesab edirəm ki, bu sahədə Azərbaycanda vəziyyət deyilən səviyyədə pis deyil. Dünya praktikasından da görürük ki, bir sıra ölkələr əvvəl iqtisadi bazanı yaradır, sonra insan haqları ilə bağlı islahatları genişləndirirlər. Məsələn, Çində iqtisadi azadlıqlar tam bərqərar olduğu halda, siyasi islahatlarla bağlı bir qədər geriləmə müşahidə olunur. Sinqapur kimi maliyyə nəhənglərindən birində də təxminən eyni vəziyyətdir. Artıq həmin ölkə tam iqtisadi azadlığını, rifahını təmin edəndən sonra siyasi islahatlara başlayıb. Ancaq mən hesab etmirəm ki, bu istiqamətlərin inkişafı yönündə Azərbaycanda ciddi fərq var. Bizdə siyasi islahatlar da iqtisadi ilə paralel aparılır. Sadəcə, bizə nəyisə diqtə etmək lazım deyil. İnsan haqlarından narahat olan həmin dairələr yaxşı olar ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına diqqəti artırsınlar. Çünki həmin prinsipin pozulmasına görə milyonlarla vətəndaşımızın elementar insan haqları tapdanıb. Onlar hələ də yaxşı olmayan şəraitlərdə yaşayırlar. Azərbaycan kimi ölkəyə iqtisadi inkişaf lazımdır ki, öz vətəndaşlarının pozulmuş insan haqlarını təmin etsin, onların yaşayış səviyyəsini düzəltsin. Uzun illərdir Azərbaycan yalnız öz gücünə bu siyasəti həyata keçirir.

Bu baxımdan da hesab edirəm ki, Avropa komissarı müəyyən diqtələri etməklə bağlı cəhdində ciddi xətaya yol verib. Nəsə hiss olunur ki, Avropa dairələri saziş məsələsində diqqəti maksimum dərəcədə əsas mövzudan yayındırmağa çalışırlar. Hərə öz üzərinə düşən öhdəliyi obyektiv şəkildə yerinə yetirsə, Azərbaycan tərəfdən heç bir problem olmaz".

*Məhəmmədəli QƏRİBLİ*

**Türkiyənin məşhur ilahiyyatçısı Nihat Hatipoğlu ATV kanalında aparıcısı olduğu iftar verilişində erməni uşağının müsəlmanlığı qəbul etməsi dünyadakı ermənilərin ciddi reaksiyasına səbəb olub. Həmin hadisədən sonra İstanbul erməni kilsəsinin arxiyepiskopu Aram Ateşyan Türkiyənin rəsmi qurumlarına şikayət edib ki, ilahiyyatçı bu hərəkəti uşağa onun iradəsinin ziddinə olaraq, zorla etdirib.**



*"Artıq onların gəncləri də saxtakarlığı qəbul etmirlər"*

# Dünya erməniçiliyində yeni böhran : yeniyetmələrin dindən dönüşü və İstanbul patriarxının riyakarlığı...

## Tural İrfan: *"Onlar narahatdırlar ki, bu hal kütləviləşər"*

Erməni keşişin bu yalançı canfəşanlığından sonra uşağın valideynləri də Hatipoğlu barəsində məhkəməyə müraciət etmək niyyətlərinin olduğunu deyiblər. N.Hatipoğlu isə uşağın valideynlərindən icazə aldığını deyib.

Qeyd edək ki, hər Ramazan yayımlanan, Hatipoğlunun aparıcısı olduğu iftar verilişinin reytinqi rekord qırmağa davam edir. Əslində, erməni din xadiminin bu canfəşanlığı, eləcə də erməni KİV-inin mövzunu daim gündəmdə saxlamasında olan maraqları aydındır. Dünyada dinini dəyişməklə bağlı belə hadisələr çox olur. Bütün millətlər buna normal yanaşırlar. Çünki bu, insan azadlığına aid olan məsələdir. Çox maraqlıdır ki, indiyə kimi ermənilərin mənsub olduqları məzhəbi qəbul edən kənar dinin nümayəndələrinə rast gəlinməyib. Artıq ermənilər anlayırlar ki, onlar üçün acınacaqlı vəziyyət yaranıb. Əgər erməni əsilli vətəndaşlar səfalət ucbatından ölkəni tərk edirlərsə, Türkiyədəki uşağın atdığı addım sübut etdi ki, onlar öz dinlərindən də beziblər. İstanbuldakı erməni din xadiminin həmin hadisənin böyük rezonans verəcəyindən və bunun dindən kütləvi imtinalara gətirib çıxara biləcəyindən ehtiyatlandığı üçün belə canfəşanlıq etdiyini iddia etmək olarmı?

**İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında məsələyə münasibət bildirdi. Onun sözlərinə görə, Türkiyədə yaşayan tanınmış ilahiyyatçı N.Hatipoğlunun televiziya verilişində bir erməni gəncinin İslam dinini qəbul etməsinə erməni arxiyepiskopu Ateşyan belə bir iddia edir ki, guya o uşağı türklər məcbur edərək dinini dəyişdiriblər:** "Qeyd edim ki, ermənilərin hər şeyi saxta olduğu kimi, dinləri də saxtadır. Qondarma bir qeyri-ənənəvi Qriqoryan dini-kilsəsi yaradaraq, dünyada və regionda ancaq məkrli siyasi oyunbazlıq edirlər. Erməni kilsəsi sırf erməni məkrinə xidmət edir. O ki, qaldı erməninin müsəlman olmasına, bu təbiidir. İslam dinində milli, irqi ayrıseçkilik yoxdur. İndiyəcən də kifayət qədər erməni İslam dininə üz tutub. Bu hallar ərəb ölkələrində daha çoxdur. Lakin qardaş Türkiyədə bu halın baş verməsinin bir neçə səbəbi ola bilər. Erməni uşağı erməni kilsəsi özü öyrədərək bu addımı atmağa məcbur edə bilər. Və sonra da uşaq "etiraf" etdirilə bilər ki, guya onu həqiqətən də İslam dinini qəbul etməyə məcbur ediblər. Bununla da ənənəvi erməni məkrinin təzahürü olaraq Avropada və dünyada şivən qopardarlar ki, baxın, türklər bizi dinimizi dəyişməyə məcbur edirlər".

Ekspert hesab edir ki, bu hadisə mütləq Türkiyənin xüsusi xidmət orqanları tərəfindən araşdırılmalıdır: "İkinci xüsus da ondan ibarətdir ki, həqiqətən də tam səmimi olaraq, gənc erməniliyin murdar xislətini dərk edib, anlayıb və məhz türklərin dininə, İslama üz tutub. Əgər belə olubsa, ermənilərin hay-küy qoparmalarının əsası yoxdur. Xüsusilə erməni keşişlərinin narahatlığı əbəsdir. Çünki azsaylı bir xalqdırlar, dinləri də ancaq özlərinə aiddir. Bu dini də ermənilər tərk etsə, artıq onlar xeyli zəifləyərək dünyada hiylə və bədxahlıqla məşğul ola bilməyəcəklər.

Ermənının İslam dinini qəbul etməsi o zaman qəbul edilər ki, həmin erməni və ya ermənilər öz millətlərinə və sabiq dinlərinə xas bütün murdarlıqlara qarşı çıxsınlar, o dini nə üçün tərk etdiklərini açıqlasınlar, ermənilərin işğal etdikləri, soyqırım törətdikləri torpaqların əsl sahiblərinin türklər olduqlarını etiraf etsinlər, hətta lazım gələndə türklər tərəfdən ermənilərə qarşı savaşsınlar. Yəni İslamı tam səmimi qəbul etsələr, bu məqbuldur.

Erməni kilsəsi isə ondan narahatdır ki, son zamanlar Ermənistandan çoxsaylı köç baş alıb gedir, indi də dindən dönmə halları başlayıb. Onlar narahatdırlar ki, bu hal kütləviləşər.

Ancaq son və həqiqi din məhz İslam olduğu üçün, bu dinin mənsublarına qarşı tarixən ən qəddar zülmləri etmiş erməni kilsəsi də yaxın zamanda Quran qarşısında aciz qalacaq.

Atalar misalımız var ki, yalan ayaq tutar, yeriməz. Erməni yalanının yıxılmasına artıq çox az qalıb. Erməni keşişlərinin həyasızlığı və şərləmələri keçərsizdir. Artıq dünya başqa dünyadır. Bu gün Türkiyə artıq İslam dünyasının ən qabaqcıl, aparıcı dövlətinə çevrilmək üzrədir. Bunu bütün dünya, o cümlədən də erməni gəncliyi görür, araşdırır, oxuyur və sonda həqiqəti qəbul edir. Artıq onların gəncləri də saxtakarlığı qəbul etmirlər, öz tarixlərinin, dövlətlərinin saxta olduğunu görürlər və ona görə də hətta dinlərini tərk edirlər".

*Məhəmmədəli QƏRİBLİ*

**Azərbaycanın mühüm ticarət tərəfdaşlarından biri olan İranda ABŞ sanksiyaları səbəbindən iqtisadiyyatda ciddi çətinliklər müşahidə olunmaqdadır. Belə vəziyyət davam edəcəyi təqdirdə İran və Azərbaycan arasında ticarət dövriyyəsində müəyyən dəyişikliklərin olması gözlənir. Məsələn, istisna edilmir ki, İrandakı indiki bahalaşma davam edərsə, Azərbaycandan bu ölkəyə ixrac artacaq.**

# Sanksiyalar İran iqtisadiyyatını çökdürür, Azərbaycan-İran ticarət əlaqələrində maraqlı proses başlayır...



Bu barədə danışmazdan öncə qeyd edək ki, mayın 8-də ABŞ prezidenti Donald Tramp İrana qarşı yeni sanksiyaların tətbiq edilməsi ilə bağlı fərman imzalayıb. Yeni sanksiyalar İranın metallurgiya, alüminium və mis istehsalı və ixracı sahələrinə tətbiq edilib.

Sanksiyalar fonunda İranda inflyasiya tempi sürətlə artır. "TradingEconomics"in məlumatına görə, aprel ayında ölkədə ötən illə müqayisədə istehlak qiymətləri 51,4 faiz artıb. Ən yüksək qiymət artımı ərzaq məhsullarının satışında müşahidə olunub və 84 faiz təşkil edib. Geyim, ayaqqabı və nəqliyyat xidmətləri isə 50 faizdən çox bahalaşıb. Bütün bunlar fonunda Azərbaycanla İranın iqtisadi münasibətlərinin gələcəyi də xüsusi maraq doğurur. Xatırladaq ki, iqtisadi müstəvidə son iki ildə bu iki ölkənin münasibətləri yüksələn xətlə irəliləyib. Xüsusən də energetika, nəqliyyat, iqtisadiyyat və turizm sahəsində əlaqələr xeyli yüksəlib. İran tərəfi "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin əsasını təşkil edən Rəşt-Astara dəmir yolu xəttinin də istifadəyə verilməsindən sonra İranla Azərbaycan arasındakı ticarət dövriyyəsinin həcminin 2 milyard dollara çatacağını proqnozlaşdırır. Hazırda iki ölkə arasında ticarət mübadiləsinin miqdarı gömrüklər vasitəsilə 500 milyon, neft ixracatı üzrə 350 milyon, turizm sektorunda isə 400 milyon dollara çatıb. Amma ABŞ-ın kəskinləşən sanksiyaları vəziyyəti dəyişir. Düzdür, real vəziyyətin təhlili göstərir ki, Azərbaycan bu prosesdən itirən tərəf olmayacaq. Əksinə, İranda bahalaşma davam edəcəyi təqdirdə artıq Azərbaycandan bu ölkəyə ixracın artması proqnozlaşdırılır. Məsələnin bu tərəfinə nəzər salan iqtisadçı-ekspert Vüqar Bayramov öncə qeyd edir ki, ABŞ sanksiyalarının İran iqtisadiyyatına həqiqətən də mənfi təsiri müşahidə olunmaqdadır və növbəti dövrlərdə də bu təsirlərin artacağı gözlənir: "Güman olunur ki, məhz sanksiyalar fonunda İran iqtisadi və sosial baxımdan zəifləyəcək. Bir tərəfdən qiymətlərin artmasının sosial təsirləri var. Digər tərəfdən İrana daxil olan valyutanın həcmində azalmalar var. Bu da rialın məzənnəsinin aşağı düşməsinə və istehlak qiymətlərində artıma gətirib çıxarıb. Son sanksiyalar daha sərtdir və bu fonda İran iqtisadiyyatının zəifləməsini müşahidə edirik".

İranda iqtisadi vəziyyətin Azərbaycana təsirinə gəlincə, ekspert bildirib ki, İran Azərbaycan üçün vacib qonşulardan biridir və ölkəmiz İranda iqtisadi vəziyyətin pisləşməsində maraqlı deyil: "Son dövrlər Azərbaycanla İran arasında ticarət dövriyyəsi artır. Bu baxımdan İrandakı iqtisadi vəziyyət ticarət münasibətlərimizə birbaşa təsir göstərəcək. 2018-ci ildə İranla Azərbaycan arasında ticarət dövriyyəsi 446 milyon dollar olub. Bu, 2017-ci illə müqayisədə 1,7 dəfə, 2016-cı illə müqayisədə 2 dəfə, 2015-ci illə müqayisədə isə 3,6 dəfə çoxdur. 2015-ci ildən başlayan bu tendensiya kifayət qədər müsbətdir".

Onun fikrincə, güman olunur ki, İranda iqtisadi çətinliklər iki ölkə arasında ticarət dövriyyəsinə təsir göstərəcək: "Sanksiyalar davam edərsə, növbəti dövrlərdə Azərbaycanla İran arasında ticarət dövriyyəsində azalmaların olacağı gözlənir. Digər tərəfdən, Azərbaycan İrandan ərzaq və eləcə də kənd təsərrüfatı məhsulları idxal edir. Dollar ifadəsində İrandan idxal edilən məhsulların həcmində kəskin artımlar var. İranda qiymətlərin artması bu ölkədən idxal edilən məhsulların qiymətinə də təsir göstərəcək. ABŞ-ın İranın dəmir, polad, mis, alüminium sektorlarına sanksiya tətbiq etməsinin Azərbaycana ciddi təsirinin olacağı gözlənilmir. Çünki Azərbaycana metallurgiya məhsullarını idxal etmək üçün Rusiya və Ukrayna kimi ölkələr var və Azərbaycan həmin ölkələrlə birbaşa əməkdaşlıq edir. Son dövrlər ölkəmizdə yerli istehsalın həcmi də artıb. O baxımdan İranda metallurgiyaya tətbiq edilən sanksiyalar bu sahədə Azərbaycan-İran əlaqələrinə təsir göstərməyəcək".

Xatırladaq ki, Rusiyaya da sanksiyalar tətbiq edilərkən bunun Azərbaycana hansı təsirlər göstərəcəyi xüsusi maraq dairəsində yer alırdı. Amma ötən illərin təcrübəsi göstərdi ki, bu hansısa ciddi problemlər yaratmayıb. Əksinə, ticarət dövriyyəsinin həcmi daha da artıb, Azərbaycandan Rusiyaya ixracın həcmi kəskin şəkildə çoxalıb. Xüsusən də qeyri-neft sektoru üzrə məhsullar indi Rusiyaya daha çox göndərilir. Elə İranla da analoji vəziyyətin yaranması gözlənir. Sadəcə, burada problem odur ki, ABŞ İrana qarşı savaşa rəvac versə, həmin ölkədən Azərbaycana xeyli sayda qaçqın axınının olması gözlənir. Hadisələrin gedişi isə ABŞ-İran savaşının qaçılmaz olduğunu üzə çıxarır. Rusiya Raket və Artilleriya Elmləri Akademiyasının vitse-prezidenti, hərb elmləri doktoru Konstantin Sivkov bildirir ki, savaş qaçılmaz olacaq və İran məsələsinin həlli üçün ABŞ əbəs yerə bölgəyə böyük sayda hərbi qüvvə cəmləşdirmir. O bu məsələdə üç ssenarini ağlabatan sayır: "Birinci variant İranın nüvə kompleksi obyektlərini məhv etmək qəsdilə miqyasca məhdud aviasiya-raket zərbəsi endirməkdir". Sivkovun sözlərinə görə, ikinci variant Yuqoslaviya ssenarisi üzrə İran iqtisadiyyatını alt-üst etmək məqsədilə əhatəli hava kampaniyası keçirmək ola bilər. Amma bu halda 120 minlik qruplaşmanı artırmaq lazım gələcək: "Əsas resurslar aviasiya qruplaşmasına qulluğa və qorumağa göndərilməlidir".

Sivkov İrana qarşı sürəkli savaşın başlanması və ərazisinin işğalını da istisna etmir: "Üçüncü variant quru qoşunlarını İran torpaqlarına yeritməklə tammiqyaslı savaş aparmaqdır, İraq savaşında olduğu kimi". Onun sözlərinə görə, belə əməliyyat üçün 120 min hərbçi bəs deyil və qruplaşmanı, ən azı, səkkiz dəfə artırmaq lazım gələcək. 20 minlik qruplaşma nöqtə əməliyyatları üçün çoxdur, işğaldan ötrü ciddi hərbi kampaniya üçün isə heç nədir.

**İran böyük, güclü ölkədir, hətta İraq da deyil. Hər şey hələlik psixoloji savaş çərçivəsində baş verir. Hərbi əməliyyatın olub-olmayacağı isə İran hökumətinin öz şanslarını nə qədər adekvat dəyərləndirdiyindən, nə qədər hərbi həllə təşəbbüs edib-etmədiyindən asılı olacaq".**

*Nahid SALAYEV*

# Şərqi Aralıq dənizində tapılmış neft-qaza görə qardaş Türkiyəyə qarşı böyük oyun başlayıb...

**Azərbaycanın əsas strateji müttəfiqi olan Türkiyə Aralıq dənizində enerji resursları üstündə böyük bir savaşa cəlb olunmaq ərəfəsindədir. Hazırda bu prosesə Türkiyə ilə yanaşı Rusiya, Çin, ABŞ, Avropa və bəzi ərəb ölkəlri də cəlb olunub. Qeyd edək ki, ABŞ Geologiya Xidməti 2010-cu ildə Şərqi Aralıq dənizi hövzəsinin qaz ehtiyatlarını 122 trilyon kubmetr dəyərləndirib.**

Elə bundan sonra bölgədə geosiyasi, geoiqtisadi rəqabət başlanıb. Son aylarda isə bu daha kəskin xarakter alıb. Qardaş Türkiyə də məhz bu fonda prosesin mərkəzində yer alır. Qeyd edək ki, Cənubi Kipr Şərqi Aralıq dənizini, Şimali Kipr Türk Cümhuriyyətinin ətrafı da daxil olmaqla, 13 ayrı bölgəyə bölərək təbii qaz axtarışları üçün lisenziya verib. Ancaq nə Türkiyə, nə də Şimali Kipr Türk Cümhuriyyəti Cənubi Kiprin bu addımının qəbul edir. Türkiyə, xüsusilə yunanların "3-cü bölgə" adlandırdığı ərazidə təbii qaz axtarışlarının ciddi bir böhran yaradacağı barədə xəbərdarlıq edib. Amma ilk dəfə ötən ilin fevralında İtaliyanın ENİ şirkətinə aid "Saipem 12000" platforması təbii qaz axtarışları üçün Şimali Kipr Türk Cümhuriyyətinin sahillərində yerləşən "3-cü bölgə"yə gəlib. Türkiyənin döyüş gəmiləri şirkətlərin fəaliyyətinə mane olub. Nəticədə, ENİ bölgədə təbii qaz axtarışlarından imtina etməyə məcbur olub. İtaliya, Fransa, İngiltərə, Almaniya və Maltanın bölgədə təbii qaz axtarışlarına, Cənubi Kiprlə yanaşı, Yunanıstan da dəstək verir.

Türkiyə isə burada Şimali Kipr Türk Cümhuriyyətinə aid sularda enerji resurslarının axtarışına start verib. Lakin Avropa İttifaqı Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti Ali Nümayəndəliyi Türkiyənin Şərqi Aralıq dənizində apardığı axtarış-qazıntı işlərini dayandırmasına dair çağırış edib. Nümayəndəliyin təmsilçisi Federika Mogerininin mətbuat katibi Maya Kociyançiç Türkiyəni Cənubi Kiprin suverenliyinə hörmət etməyə və bu dövlətin iqtisadi zonası sayılan bölgədəki fəaliyyətinə son qoymağa çağırıb. Kociyançiç bildirib ki, Avropa Komissiyasının Türkiyənin Şərqi Aralıq dənizində Cənubi Kiprə aid bölgədə axtarış-qazıntı işlərini qınadığı 2018-ci il tarixli mövqeyi var. Bu mövqe hələ də davam etdirilir. Maya Kociyançiç bu məsələdə Cənubi Kiprin yanında olduqlarını deyib.

ABŞ da Türkiyəni Şərqi Aralıq dənizində enerji axtarışlarını dayandırmağa çağırıb. ABŞ Dövlət Departamentinin mətbuat katibi Marqan Ortaqus Türkiyəni Cənubi Kiprin müstəqilliyinə hörmət etməyə və Kiprin iqtisadi bölgəsi olan zonada enerji axtarışından imtina etməyə çağırıb. Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğan isə NATO-nun Aralıq dənizi dialoqu üzrə toplantısında bildirib ki, Türkiyənin Aralıq dənizində qazıntı haqqı müzakirəyə çıxarılmır. Əlavə edib ki, NATO-dan Ankaranın hüquqlarına saygı gözləyir.

Bu arada Türkiyə Xarici İşlər Nazirliyi bəyan edir ki, Qərb tərəfindən verilən açıqlamalarda iddia olunanların gerçəkliklə heç bir əlaqəsi yoxdur: "Türkiyə Şərqi Aralıq dənizində ölkələrin sərhədlərinə dair mövqeyini 2004-cü ildə açıq şəkildə ortaya qoyub. Cənubi Kiprin bölgə ölkələri ilə sərhəd məsələsində əldə etdiyi razılaşma Türkiyə və Şimali Kipr üçün keçərli deyil. Türkiyənin dəniz sərhədləri BMT-nin nəzdində qeydə alınıb". Hazırda Qərb ölkələri və Türkiyə bölgəyə aktiv şəkildə hərbi qüvvələr cəmləşdirir. Rusiya da bölgəyə bir neçə döyüş gəmisi göndərib. Türkyənin təhlükəsizlik mütəxəssisi Mete Yarar bildirir ki, artıq Aralıq dənizində Türkiyə sərhədləri yaxınlığında 200 döyüş gəmisi yerləşdirilib.

Yararın sözlərinə görə, bəzi ölkələr Türkiyənin Aralıq dənizində təbii qaz axtarışları aparmasını istəmir: "Son zamanlar Şərqi Aralıq dənizində təbii qaz və neft ehtiyatları tapılıb. Türkiyənin taleyini dəyişdirəcək ehtiyatların bizə nə qədər yaxında olduğunu bilirik. Aralıq dənizində 200 döyüş gəmisi yerləşdirilib. Bizim bu ehtiyatlara çatmağımızı istəmirlər və bu döyüş gəmiləri sərhədlərimizin yaxınlığında yerləşdirilib. Bu, İkinci Dünya müharibəsindən bəri açıq dənizdə yerləşdirilən gəmilərin rekord sayıdır". Mütəxəssisin sözlərinə görə, son dövrlərdə Şərqi Aralıq dənizində baş verən proseslər Türkiyəyə qarşı hərəkətliliyə işarədir: "Türkiyə çoxistiqamətli şəkildə hədəf alınıb. Ankaranın başını qatmağa çalışırlar. Ana hədəf isə Şərqi Aralıq dənizidir. Paralel zamanda həm bu bölgəyə, həm də Suriyada Fərat çayının şərqinə hücumlar başlayacaq. Türkiyəni iki cəbhədə birdən sıxıntıya düçar edəcək siyasətin izindədirlər. Bu səbəbdən də Rusiyadan S-400 raketlərini almağımızı istəmirlər.

Çünki Türkiyə S-400 sistemlərini bu nöqtəyə yerləşdirsə, həm Suriyada, həm də Şərqi Aralıq dənizində hava üstünlüyünü ələ keçirəcək. ABŞ-dakı hərbi ağıl bunu gördüyü üçün Türkiyəni meydanda qapıçısız futbol komandası kimi görmək istəyir. Türkiyə havadan müdafiəsini təmin etdikdən sonra bölgəyə milli silahlarını yerləşdirərək üstünlüyü daha da yuxarı səviyyəyə qaldıracaq. İndi iki alternativimiz var. Ya hər şeydən imtina edib ABŞ-a bağlı siyasətlə gedən Türkiyə olacağıq, ya da qarşımızdakı divarları parçalayıb öz siyasətimizi inşa edəcəyik".

Türkiyənin "Takvim" qəzeti isə baş verənlərlə bağlı yazır ki, bölgə artıq Çinin də maraq dairəsinə düşüb: "Yaranmış durumda Türkiyənin mövqeyini və gücünü yaxşı bilmək şərtdir. Bunu bilmək üçün də məsələyə geniş baxmaq lazımdır. 1700-cü illərdə qlobal iqtisadiyyatın 35%-i Çinin payına düşürdü. 2030-cu ildə bu rəqəm yenidən 35%-ə çatacaq. Dünyada istehlak edilən hər 100 maldan 35-i Çin malı olacaq. Bu da Çini yeganə supergüc halına gətirəcək. Bu durumda ABŞ yeni Çin layihəsi olan "İpək yolu" ilə çökəcəyini bilir. ABŞ-da Çinə qarşı olan koalisiya genişləndiyi halda, Çin Aralıq dənizində "Huawei" və telekommunikasiya avadanlıqları istehsalçısı olan "ZTE Corp." üçün xüsusi bir baza hazırladı. Ona görə də Aralıq dənizində gərginlik daha da artacaq. Çünki "Huawei" və "ZTE" Aralıq dənizində olarsa, ABŞ üçün çöküş başlamış olacaq. Bu, iki böyük güc arasında olan savaşdır. Pekinin neftə çıxışını əngəlləmək istəyən ABŞ da, geri addım atmayan Çin də meydandadır. ABŞ və NATO ilə qarşı-qarşıya gələn Türkiyə isə Avrasiya qanadındadır. Yəni ABŞ-ın qarşısında. Bu şəraitdə Türkiyə Avrasiyadakı mövqeyini dəyişdirsə də, dəyişdirməsə də ortaya yeni strukturlar çıxacaq. 15 iyuldan sonra Ankaranın Moskava ilə yaxınlığının meydana çıxması, öz növbəsində, Türkiyənin ABŞ-NATO-Qərb ittifaqı ilə arasına məsafə qoymasını da gətirdi. Ankara, haqlı olaraq, yeni bir qütblə, yeni Moskva ilə bütünləşmənin yollarını aradı.

**Biləməliyik ki, ABŞ da, Çin də birbaşa özü ilə işləyən təşkilat istəyəcək. Yəni onlar birlikdə yürüyəcəyi partiyalarla dünyada qarşı-qarşıya gəlmək istəməz. Hazırda bu barədə söhbət edilməsə də, AKP daxilində Avrasiya kartına etiraz edənlər olduğu kimi, CHP daxilində də ABŞ-NATO-Qərb ittifaqına qarşı sərt çıxanlar var. Bir ucdan Çin, digər ucdan ABŞ asılıb. Türkiyə həssas oynamalıdır".**



*Tahir TAĞIYEV*

Məlum olduğu kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan Çində ikigünlük işgüzar səfərdə olub. Ermənistanın Baş naziri Çinə etdiyi səfər çərçivəsində həmin ölkənin Prezidenti ilə görüşüb. Görüşdə Ermənistan-Çin münasibətlərinin gələcək inkişaf perspektivləri müzakirə edilib.

# Paşinyanın yersiz sevinci - Çin Prezidentinin Türkiyəyə taktiki mesajı, ya uydurma genosidi ciddi tanımaq niyyəti...

## Əli Orucov: "Düşünmürəm ki, Çin qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı hər hansı bir addım atsın"



*"Ermənilərin bu yöndə gözləntiləri bir nəticə verməz"*

Paşinyan öz "Facebook" səhifəsində yazıb ki, Çin rəsmiləri onu olduqca böyük qonaqpərvərliklə qarşılayıblar və hətta o bundan şoka düşüb.

Erməni mətbuatı yazır ki, guya iki ölkə başçısının görüşündə Çin Prezidenti qondarma "erməni soyqırımı" məsələsinə toxunub. Ancaq, əslində, Çin dövlət başçısı bununla bağlı açıqlamasında soyqırım ifadəsini işlətməyib: "Ermənistanın tarixində əhəmiyyətli hadisələri bilirik. Biz erməni xalqının həyatında baş vermiş faciəli hadisələrin gələcəkdə təkrarlanmamasına əminik".

Bundan bərk sevinən erməni tərəfi sözügedən açıqlamanı guya Çinin qondarma "soyqırımı" tanımağa hazırlaşması kimi təqdim etməyə çalışıb. Erməni tərəfi bunu həm də onunla əsaslandırmağa çalışıb ki, guya Ermənistan bölgədə Çin üçün xüsusi strateji əhəmiyyət kəsb edir.

O da məlumdur ki, uyğur türkləri ilə bağlı Çinlə Türkiyə arasında müəyyən fikir ayrılıqları var. Bu baxımdan, Çin dövlət başçısının məlum açıqlaması daha çox Türkiyəyə sətiraltı mesaj verməsinə bənzəyir. Yəni bu o demək deyil ki, Çin qondarma "soyqırımı" tanımaq istəyindədir.

Bütün hallarda, rəsmi Pekin qondarma "erməni soyqırımı"nı tanıya bilərmi?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov Çinin belə bir addım atacağını istisna etdi:** "Düzdür, ermənilər hər fürsətdən istifadə edirlər ki, özlərinin məkrli planlarına dəstək qazansınlar və bunu həyata keçirsinlər. Ona görə də səfər etdikləri ölkələrdə öz ambisiyalarını qabardırlar. Bunu özləri üçün bir fürsət hesab edirlər. Paşinyandan qabaq Prezident İlham Əliyevin Çində böyük bir tədbirdə iştirakı oldu. Çin-Azərbaycan əlaqələrinin inkişafı ilə bağlı bir sıra sazişlər imzalandı. Təbii ki, dünyada böyük dövlət olan Çinlə Azərbaycanın əməkdaşlığının belə genişlənməsi Ermənistanı təşvişə salır. Ona görə də Ermənistan Baş naziri tələm-tələsik Çinə səfər etdi. Bütün hallarda, düşünmürəm ki, Çin qondarma "erməni soqırımı"nın tanınması ilə bağlı hər hansı bir addım atsın. Çinki Çin bu mənada bir qədər fərqli mövqedədir. Nəzərə almaq lazımdır ki, Çin bır qədər qapalı ölkə olduğuna görə belə məsələlərə o qədər də qarışmır. Çin Türk dünyası ilə fərqli münasibətlərə malik olsa da, bu kimi həssas məsələlərdə ermənilərin xoşuna gəlmək üçün addımlar atmaz. Ona görə də ermənilərin bu yöndə gözləntiləri bir nəticə verməz. Paşinyan səfər zamanı başladı şikayət etməyə ki, bəs bu ölkəni Türkiyə ilə Azərbaycan blokadaya alıb. Bu səbəbdən Ermənistan beynəlxalq kommunikasiya xətlərindən kənarda qalıb.

**Ancaq onun bu şikayətinə Çin tərəfi heç bir reaksiya vermədi. Bu baxımdan da düşünürəm ki, Çin türkdilli ölkələrlə əlaqələrin inkişafında daha çox maraqlıdır. Həyata keçirilən bir sıra meqalayihələr də bunu deməyə əsas verir. Ona görə də ermənilərin qondarma "soyqırım"la bağlı Çindən gözləntiləri əbəsdir".**

***Vidadi ORDAHALLI***

**ABŞ-ın Fars körfəzinə təyyarədaşıyan gəmi, nüvə raketi daşıyan bilən B-52 bombardman təyyarələrilə yanaşı 120 min əsgər göndərmək qərarından sonra bölgədə müharibə təhlükəsi getdikcə daha da artıb. Bununla yanaşı, ABŞ Suriya və İraqdakı İran dəstəkli hərbi qüvvələri də sıradan çıxarmağa çalışır. Belə görünür ki, son 30 ildə müharibə, işğal və terrordan əziyyət çəkən İraq ABŞ-İran münaqişəsində də əsas cəbhələrdən biri olacaq.**

# İraqda İranyönümlü "Haşdi Şabi" təşkilatı ABŞ əleyhinə 200 minlik ordunu hazır vəziyyətə gətirdi




Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, ABŞ Suriyanın Deyrizor bölgəsində İran dəstəkli silahlıları daşıyan konvoyu bombalayıb. Bundan dərhal sonra da Başdaddakı vətəndaşlarını İraqı tərk etməyə çağırıb. İran isə İraqdakı "Haşdi Şabi" silahlı qruplaşmasına ABŞ hərbçilərinin olduğu yerlərə hücum üçün hazır olmaq təlimatı verib. Bütün bu hadisələr isə bölgədə vəziyyəti daha da gərginləşdirib.

Baş verənləri şərh edən iraqlı general Qalib Salih bunu "müharibə hazırlığı" kimi dəyərləndirib. General ABŞI-la İran arasında ilk qarşıdurmaların Suriya və İraqda yaşanacağını deyib.

"Haşdi Şabi" silahlı qruplaşmasının komandiri Rıdvan əl-Qanimi İraqda olan bütün ABŞ bazalarını vurmaq gücündə olduqlarını deyib. Başqa bir "Haşdi Şabi" generalı isə "müharibəyə hazır olun" təlimatı aldıqlarını deyib.

ABŞ-la müharibəyə hazır olduqlarını deyən "Haşdi Şabi" komandiri bunun üçün 130 min əsgərin hazır vəziyyətdə əmr gözlədiyini bildirib. "130 min əsgərimiz var. Bu say Suriya ilə birlikdə 200 min nəfərlik böyük bir güc deməkdir" - general deyib.

Suriya ordusundan ayrılaraq müxaliflərə qoşulan İmed Said isə ABŞ-ın əsas hədəfinin İrandan kənardakı güc mərkəzləri olacağını iddia edib. O, İraqda 9 hərbi bazası olan ABŞ-ın Suriyanın şimal və şərq bölgələrində 24 hərbi qərargah inşa etdiyini deyib. Said ABŞ-ın İrana qarşı Suriyada PKK-dan da istifadə edəcəyini iddia edib.

İranlı fəal Elyar Makuyi isə İranın Ahvaz, Kirmanşah, Təbriz və Kürdüstan bölgələrində 3 xüsusi təlim düşərgəsi qurduğunu, 20 mindən çox milisə təlim keçərək, İraq və Suriyaya göndərdiyini yazıb.

Bundan əvvəl ABŞ, fövqəladə vəziyyətlərdə çalışan şəxslər istisna olmaqla, bütün hökumət işçilərinə İraqı tərk etmək əmri verib. ABŞ-ın Bağdaddakı səfirliyinin yaydığı açıqlamada bunun həm səfirlik, həm də Ərbildəki konsulluq işçilərinə şamil edildiyi bildirilir. Səfirlik və konsulluqda normal viza xidmətləri də müvəqqəti dayandırılıb.

ABŞ dövlət katibi Mayk Pompeo isə İran dəstəkli silahlıların raketlərini İraqdakı ABŞ bazalarına yaxın bir yerdə yerləşdirdiyini bildirib. İraq rəsmilərinə səslənən Pompeo ABŞ bazalarını təhdid edən İrana bağlı qüvvələrin nəzarət altına alınmasına çağırıb.

ABŞ-ın ardından bəzi Avropa ölkələri də bənzər qərarlar qəbul edib. Almaniya Müdafiə Nazirliyi bölgədəki gərginliyin artmasına görə alman ordusunun İraqda təlim əməliyyatlarını dayandırdığını bəyan edib.

"Təhlükəsizliklə bağlı vəziyyətin pisləşdiyinə dair bir işarə varmı" sualını cavablandıran Müdafiə Nazirliyinin mətbuat katibi Jens Flosdorf Qərbin İraqdakı maraqlarına qarşı təhlükələrin qaçılmaz olduğuna dair öz tərəfindən işarələrə malik olmadığını bəyan edib: "Bizdə belə bir məlumat yoxdur, konkret bir təhdid yoxdur. Orada vəziyyət ümumiyyətlə gərgin hesab olunur. Alman hədəflərinə qarşı konkret hücum xəbərdarlıqları yoxdur. Müttəfiqlərimiz və digər tərəfdaş ölkələrlə daim təmasdayıq".

Almaniyanın İraqın şimalındakı Taji şəhərində 60, kürdlərin olduğu bölgədə isə 100 əsgəri var.

Hollandiya da İraqda hərbi təlim əməliyyatlarını dayandırığını bildirib. Hollandiya hökuməti təlim əməliyyatlarının qeyri-spesifik təhlükə ilə əlaqədar olaraq dayandırıldığını bildirib.

Bu qərarlar ABŞ-ın son vaxtlar İraqa qonşu olan İran üzərində təzyiqləri artırdığı bir vaxtda yaşanır.

Bundan başqa, ABŞ Hərbi Komandanlığı (CENTCOM) İran dəstəkli qüvvələrdən gələ biləcək hücum kəşfiyyatına görə İraq və Suriyadakı mövqelərində təhlükəsizliyi ən yüksək səviyyəyə çatdırıb.

ABŞ-ın İraq, Livan, Birləşmiş Ərəb Əmirlikləri və Türkmənistandakı konsulluqları da Amerika vətəndaşlarını "yüksək səviyyədə ayıqlıq" göstərməyə çağırıb.

Xatırladaq ki, ABŞ İrandan gələn təhdidlərə qarşı tədbir məqsədilə "USS Abraham Linkoln" təyyarə gəmisi ilə 4 nüvə tutumlu "B-52" bombardıмançı təyyarəsini Fars körfəzinə göndərib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# 18 ildən sonra ABŞ-da yenidən Qarabağ sazişi imkanı - Amerika və Ermənistanın təhlükəsizlik şefləri görüşdü

**Ermənistan hakimiyyətinin mövcud davranış və fəaliyyəti işğalçı ölkənin Dağlıq Qarabağ münaqişəsini hələ də dinc müstəvidə həll etməyə hazır olmadığını göstərir. Əraziləri işğal altında qalan Azərbaycan isə prosesin uzanmasını istəmir və güc yolu ilə işğal amilinə son qoya biləcəyini açıq şəkildə vurğulayır. Buna rəğmən, hazırda Azərbaycan nəticəsi olan danışıqların olmasını da istədiyini xüsusi vurğulayır.**

Bu mənada, tərəflərin ABŞ-da keçirilməsi gözlənilən növbəti danışıqlarına indi maraq kifayət qədər böyükdür. Çünki məhz bu danışıqların nəticəsindən asılı olaraq məsələnin dinc, yoxsa güc müstəvisində çözüləcəyi bilinəcək.

Hazırda prosesdə növbəti danışıqlara ev sahibliyi edəcək Vaşinqtonun aktivləşməsi də müşahidə olunur. Bu fonda ABŞ prezidenti Donald Trampın xüsusi işlər üzrə köməkçisi, Milli Təhlükəsizlik Şurasının baş direktoru Fiona Hill Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşüb. Məlumata görə, Vaşinqtonda keçirilən görüşdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi müzakirə olunub. Tərəflər münaqişənin dinc yolla həllinin vacibliyini vurğulayıb. Ekspertlər isə ABŞ-ın məsələnin həllində fəalaşmasını vacib sayır. Çünki bu hal Rusiya ilə rəqabət yaradacağından, hər iki ölkənin müdaxiləsi nəticəsində konfliktin çözümü tezləşə bilər. ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi bu xüsusda bildirir ki, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müsbət siqnallar var. Onun sözlərinə görə, Vaşinqton ATƏT-in Minsk Qrupu çərçivəsində Avropadakı tərəfdaşları və Rusiya ilə işləməyə hazırdır: "Son aylar görünür ki, münaqişənin həllində irəliləyiş əldə etmək mümkündür. İki ölkə rəhbərlərinin görüşləri, cəbhədə gərginliyin azalması, dialoqun davam etdirilməsi ilə bağlı razılaşmalar... Bütün bunlar münaqişənin həlli ilə bağlı müsbət siqnallardır". Qeyd edilən səbəblərdən Azərbaycan və Ermənistan təmsilçilərinin Vaşinqton görüşünə maraq böyükdür. Görüş baş tutsa, bu, tərəflərin 18 illik uzun fasilədən sonra ABŞ ərazisində ilk görüşü olacaq. Sonuncu dəfə Azərbaycan və Ermənistan liderləri 2001-ci ildə ABŞ-ın Ki-Uest şəhərciyində görüşüblər. Masa üzərinə münaqişənin çözümü üçün müvafiq sazişin mətni qoyulsa da, Azərbaycanın təhlükəsizlik maraqlarına cavab vermədiyindən o imzalanmadı. İndi tərəflərin yenidən ABŞ-da bir araya gəlməsi fonunda istənilən nəticə hasil olmazsa, Azərbaycan savaşa start vermək məcburiyyətində qalacaq.

Məhz belə bir vaxtda Azərbaycanın başladığı yeni hərbi təlimlər də Ermənistan üçün xatırlatma sayılır. Qeyd edək ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən 24-dək Azərbaycan ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək. Təlimlərin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsidir. Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunacaq. Çətin relyef, gecə vaxtı və mürəkkəb radio-elektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək. Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı isə vurğulayıb ki, genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin keçirilməsi həmişə olduğu kimi növbəti dəfə Ermənistan tərəfini qorxuya salıb.O bildirib ki, ordumuzun planlı surətdə keçirdiyi təlimlər barədə nazirlik həmişə əvvəlcədən xəbər yaymaqla ictimaiyyəti və beynəlxalq qurumları məlumatlandırır: "Eyni zamanda, təlimin mərhələləri barədə foto-video süjetlər nazirliyin rəsmi internet saytı vasitəsilə ictimaiyyətə təqdim olunur. Bizdən fərqli olaraq, Ermənistan tərəfi heç vaxt belə bir addım atmır. Keçirdiyi dırnaqarası hərbi təlimlər barədə əvvəlcədən rəsmi məlumat vermir, yalnız "təlim" bitdikdən sonra əvvəllər çəkilmiş bir-iki döyüş texnikasının köhnə foto və videolarını yaymaqla kifayətlənir. Beynəlxalq qurumlar tərəfindən tanınmış sərhədlərimiz çərçivəsində təlimlər keçirməyimizdən təşvişə düşən rəsmi İrəvan guya bizim hansısa tələbləri pozmağımız barədə uydurma və gülünc bəyanatlarla çıxış etməkdən belə çəkinmir". Erməni tərəfinin də mövqeyindən belə bəlli olur ki, düşmən həqiqətən də Azərbaycanın növbəti güc nümayişindən ciddi narahatlıq keçirir. Məsələn, işğal altında olan Qarabağdakı qondarma qurum "rəhbərinin müşaviri" Tiqran Abrahamyan qeyd edir ki, Azərbaycan təlimləri boşu-boşuna keçirmir. O bu təlimlərin real döyüş əməliyyatlarına keçə biləcəyini istisna etmir: "Hərbi təlimlərin sayını artıran Azərbaycan ön xətdə nəzərəçarpan fəaliyyətlər göstərir və bu onu onu deməyə əsas verir ki, yaxın gələcəkdə genişmiqyaslı hərbi əməliyyatlara şahid olacağıq". Onun sözlərinə görə, cəbhə xəttinin müxtəlif istiqamətlərində aparılan mühəndis işləri bir neçə ay əvvəl başlayıb. Müxtəlif xarakterli təlimlərin davam etməsindən danışan Abrahamyan ordumuzun fəallığını heç də azaltmadığını qeyd edib: "Azərbaycanın fəallığının artması danışıqlar prosesinin yenidən bərpa edilməsi ilə əlaqədardır. Görüşlər olsa da, danışıqlar meydanının yaradılmasına nail olmaq mümkün olmayıb. Fəallığın artması gərginliyə səbəb ola bilər". Digər erməni hərbi ekspert Leonid Nersisyanın fikrincə, hərbi təlimlər Azərbaycan ordusunun döyüş qabiliyyətinin artmasına gətirib çıxarır: "Müntəzəm və genişmiqyaslı təlimlər Azərbaycan ordusunun döyüş qabiliyyətini daha da artıracaq. Münaqişə həll olunmadıqca, hərbi əməliyyatların yenidən başlanması risqi qalacaq. Ona görə Ermənistan bu çox arzuolunmaz müharibə risqinə hazır olmalıdır. Amma təəssüf ki, müharibəyə hazır deyilik". Erməni ekspert Azərbaycanın hərbi təlimlər yolu ilə İrəvana təzyiq göstərmək istədiyini də vurğulayır: "Azərbaycan Ermənistanı yavaş müharibəyə sürükləmək və onun bütün resurslarını tükəndirməyə çalışır".

Ekspert Azərbaycanın ağır artilleriya və zirehli texnikadan istifadə etməsini təhlükəli fakt adlandırıb. Onun fikrincə, təlimlər hücum əməliyyatlarına xasdır: "Bu mənada, təlimlərin Ermənistan üçün təhlükəli perspektivdən xəbər verdiyini deyə bilərik. Təlimlərdə minlərlə hərbçinin və texnikanın toplaşması Ermənistanda narahatlıq hissi yaradır. Çoxminli ordunun sərhədlərimizə yaxın yerdə təlim keçirməsi narahatedicidir".

Sirr deyil ki, hərbi təlimlər müharibədəki real döyüşlərin ilkin variantıdır. Azərbaycan isə buna böyük əzmlə hazırlıq görürür. Bu mənada hesab edilir ki, Azərbaycan ordusunun başlayacağı hərbi əməliyyat Ermənistan silahlı qüvvələrinin tam darmadağın olmasına və erməni xalqının qaçılmaz faciəsinə çevriləcək. Bu mənada fikirlər səslənir ki, yeni təlimlər Ermənistan hökuməti üçün Azərbaycanın son xəbərdarlığı da ola bilər. Yəni Azərbaycan ordusu genişmiqyaslı hərbi təlimlər keçirməklə hər zaman müharibəyə hazır olduğunu göstərir. Məlum aprel döyüşlərində və Günnüt əməliyyatlarında əldə edilən uğurların timsalında düşmən özü də bunun şahidi oldu. İndi Azərbaycan ordusu çevik hərbi əməliyyatlara başlayarsa, aprel döyüşlərində və Günnüt əməliyyatlarında olduğu kimi, Ermənistan növbəti dəfə Silahlı Qüvvələrimizin gücünə yaxından bələd olacaq. Digər tərəfdən düşmən onu da unutmur ki, döyüş hazırlığına görə Silahlı Qüvvələrimiz dünyanın 50 ən aparıcı ordusu sırasında qərarlaşıb. Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnika ilə təmini istiqamətində də zəruri addımlar atılır. Bu fonda davamlı olaraq güclənən və regionun ən qüdrətli ordusuna çevrilən Azərbaycan ordusu düşməndə böyük vahimə yaradır. Bu isə o deməkdir ki, ordumuz istənilən an işğal altında olan torpaqlarımızı azad etməyə, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir. Qeyd edilənlər fonunda son illər ərzində Azərbaycan ordusunda keçirilən irimiqyaslı təlimlər getdikcə daha çox diqqət çəkir. Belə təlimlər ordunun döyüş hazırlığı səviyyəsinin yoxlanılması, döyüş texnikasının, müasir silahların tətbiqi imkanlarının öyrənilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Təlimlərə böyük sayda şəxsi heyət, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunları, ən müasir standartlara uyğun zirehli texnikaların cəlb edilməsi isə onun effektivliyini daha da artırır. Eləcə də belə təlimlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərir. Elə düşməni narahat edən başlıca məqamlardan biri də məhz budur. İndilikdə ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsi, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılması bu sahədə uğurları daha da artırır. Bütün bunlar isə Ermənistanla aparılan danışıqlar ölkəmiz üçün istənilən şərtlərlə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın güc yolu ilə istəyinə çatmasına lazımi imkanlar yaradır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ölkəmizdə insan hüquq və azadlıqlarının nümunəvi təmini, cinayətkarlıqla qətiyyətli mübarizə, cəza siyasətinin humanistləşdirilməsi siyasəti, sabitliyin, əminamanlığın etibarlı qorunması vətəndaş-dövlət münasibətlərinin və milli həmrəyliyin möhkəmləndirilməsinə xidmət edir.**

# Nimdaş "qvardiyaçılar" panika içində...



Bu reallıqlar cəmiyyətin bütün təbəqələri ilə yanaşı, respublikamıza gələn, burada fəaliyyət göstərən əcnəbilər tərəfindən də rəğbətlə qarşılanır.

Lakin Azərbaycandakı dinamik inkişafın, dayanıqlı sabitliyin əleyhinə çıxaraq, heç bir siyasi, ictimai, sosial platformaları olmayan, özlərini "hüquq müdafiəçisi", "müstəqil ekspert" adlandıran elə şəxslər var ki, onlar məqsədli şəkildə sosial mediadan şərböhtan yağdırır. Görünür, cəmiyyətin əminamanlıq, təhlükəsizlik içində yaşaması onları da narahat edir. Bu qrup nimdaş "qvardiyaçı" süni ajiotaj yaratmağa çalışır.

Ağa qara deməyə adət etmiş belələri bəlli siyasi mərkəzlərdən aldıqları sifarişlər əsasında cəmiyyətdə qarşıdurma yaratmaq üçün uğursuz səhdlər göstərirlər. Onlar antiazərbaycançı dairələrin diqtəsilə vaxtaşırı polis orqanlarında, cəzaçəkmə müəssisələri və istintaq təcridxanalarında saxlanılan şəxslərə işgəncə verilməsi barədə iddialar səsləndirirlər. Özlərini hüquq müdafiəçisi adlandıran bu adamlar illərdir ki, ölkəmizlə bağlı belə yalan informasiyaları tirajlamaqla məşğuldurlar.

Azərbaycanın dünyada əminamanlığın yüksək səviyyədə qorunduğu təhlükəsiz ölkələrdən biri olmaqla asayişin təmini, cinayətkarlıqla mübarizədə müsbət nəticələrə görə MDB, eləcə də Şərqi Avropa məkanında öncül mövqe tutduğu hər kəsə bəllidir. O da yaxşı məlumdur ki, respublikamızda insanların qanuni mənafelərinin, mülkiyyətinin və hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində də əhəmiyyətli işlər görülür.

Polis əməkdaşları tərəfindən kobud rəftar və digər bu kimi neqativ hallar barədə vətəndaşlardan gələn bütün müraciətlər nazirliyin müvafiq qurumları tərəfindən dərhal araşdırılır, nəticəsindən asılı olaraq hər bir fakt öz obyektiv qiymətini alır. Digər tərəfdən, daxili işlər orqanlarının müvəqqəti saxlama yerlərində müasir informasiya texnologiyalarının xidməti fəaliyyətdə tətbiqi, nazirliyin rəhbərliyinin, prokurorluğun, Ombudsman Aparatının, müvafiq mandata malik beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin nəzarətinin olduğu, monitorinqlərin keçirildiyi, nəticələr barədə ictimaiyyətin vaxtaşırı məlumatlandırıldığı, bu zaman saxlanan və istintaq altında olan şəxslərin saxlanma şəraitindən, polisin rəftarından şikayətçi olmadıqları hüquq müdafiəsi ilə məşğul olanlara yaxşı bəllidir. Lakin bəziləri ya bu adi həqiqətləri görmür, ya da görmək istəmir.

Azərbaycan bir hüquq dövlətidir, cəmiyyət qanunlarla idarə olunur. Dövlət, onun güc strukturları da hər zaman haqqın, ədalətin tərəfində, vətəndaşının yanındadır. Saxta "siyasi məhbus", guya işgəncəyə, təzyiqə məruz qalan saxlanan şəxslərin siyahısını hazırlayaraq beynəlxalq təşkilatlara göndərib, bu yolda özlərini həqiqi hüquq müdafiəçiləri sayan şəxslərin cəmiyyətdə daha faydalı işlərlə məşğul olması, yəqin ki, onların özlərinin də mənafelərinə xidmət edərdi.

Nə yazıq ki, başabəla "ekspertlər"in, "hüquq müdafiəçiləri"nin nümunə kimi göstərdikləri dövlətlərdə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmanlıqla həlak olan polis əməkdaşlarının fədakarlığı, mənəvi keyfiyyətləri bir örnək kimi təqdir olunur, onların mənalı həyatından, cəmiyyət, hər bir vətəndaş üçün gərəkli fəaliyyətlərindən bəhs edən bədii, sənədli filmlər çəkilir, əsərlər yazılır. Bizdə isə biriləri vətəndaşların təhlükəsizliyi, asayişin, əminamanlığın keşiyindədir, bu yolda hətta həyatını da qurban verir, digərləri isə iğtişaşlar yaratmaqla, aranı qarışdırmaqla sabitliyə, dövlətçiliyə qəsd edən, polis əməkdaşlarını qətl etməkdən belə çəkinməyən ünsürlərin, guya ki, hüquqlarını müdafiə edirlər, onların istintaq prosesində guya işgəncələrə məruz qalmalarına dair dezinformasiyalar yaymaqla sonuncuları özlərinin "siyasi məhbus" siyahılarına salırlar.

Bu yerdə böyük şairimiz Məmməd Arazın sözləri yada düşür: "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı...."

*Orxan MANSURZADƏ*
*polis polkovniki*

---

**Azərbaycanda banklar rəqəmsallaşma prosesində MDB-nin digər ölkələrindən geri qalırlar. Bu barədə "Mood's" beynəlxalq reytinq agentliyi məlumat yayıb.**

# Beynəlxalq hesabatda banklarımıza ən pis qiymət - MDB-də tək Tacikistandan yaxşıyıq...




*"Bu səbəbdən banklar sözügedən sahəyə sərmayə qoymadılar"*

## *Aydın Hüseynov: "2015-ci ildə baş verən devalvasiyadan sonra bank sektorunda gərginliklər yaşandı"*

Agentliyin MDB ölkələrinin bank sektorlarının rəqəmsallaşmasına dair hesabatında deyilir ki, Azərbaycan bu məsələdə yalnız Tacikistanı qabaqlayır: "Azərbaycanda plastik kartlar üzrə dövriyyə əhalinin gəlirlərinin təxminən 6 faizini təşkil edir və bu göstərici üzrə ölkə MDB-də yalnız Tacikistanı qabaqlayır. Onlayn bank hesablarının sayı isə ümumi hesabların sayının cəmi 7 faizini təşkil edir, bu da MDB ölkələri arasında ən pis göstəricidir".

Agentliyin məlumatından o da məlum olub ki, Azərbaycan mobil rabitənin yayılması üzrə regionun digər ölkələrindən bir qədər geridə qalır. "Əgər MDB ölkələri arasında hər 100 nəfərə orta göstərici 136 SIM-kart təşkil edirsə, Azərbaycanda bu göstərici hər 100 nəfərə 103 nömrə təşkil edir. MDB ölkələri arasında Azərbaycan bu göstərici üzrə Moldova, Tacikistan və Özbəkistanı geridə qoyur".

"Mood's"ın hesabatında o da qeyd olunub ki, internetin yayılması üzrə Azərbaycan MDB ölkələrini mühüm dərəcədə geridə qoyur. Əhalinin 79 faizi internet şəbəkəsi istifadəçisidir, baxmayaraq ki, MDB üzrə orta göstərici 68 faiz təşkil edir. Bu göstərici üzrə Azərbaycan MDB ölkələri arasında birinci yerdədir.

Görünən odur ki, Azərbaycanda bankların rəqəmsallaşma səviyyəsi qənaətbəxş deyil. Son illər banklar bu sahəyə o qədər də sərmayə qoymurlar. Halbuki, müasir dövrdə bu çox vacibdir.

Maraqlıdır, Azərbaycanda banklar rəqəmsallaşma prosesində MDB və digər ölkələrdən niyə geri qalırlar? Ekspertlər bunun səbəbini nə ilə əlaqələndirirlər?

**Sözügedən məsələyə aydınlıq gətirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, müxtəlif səbəblərdən banklar bu sahəyə az sərmayə qoyurlar:** "Məsələ ondadır ki, 2015-ci ildə baş verən devalvasiyadan sonra bank sektorunda gərginliklər yaşandı. Bu səbəbdən banklar sözügedən sahəyə sərmayə qoymadılar. Sonrakı illərdə - 2016-2017-ci illərdə banklarda sağlamlaşma prosesi ilə bağlı böyük layihələr həyata keçirildi. Cənab Prezidentin sərəncamı ilə banklarda əmanətlərin sığortalanması üçün müddət uzadıldı, Maliyyə Bazarlarına Nəzarət Palatası yaradıldı. Bir sözlə, böyük struktur dəyişikliklər aparıldı. Nəhayət, 2018-ci ildə banklarla bağlı bəzi dəyişikliklər əldə olundu. Başqa bir tərəfdən, problemli kreditlər məsələsi də bankların rəqəmsallaşma prosesinə mənfi təsir edirdi. Artıq bu problem də öz həllini tapdı. Mərkəzi Bank banklara aylıq 0.1 faizlə kredit verilməsi ilə bağlı vəsait ayırıb. Hesab edirəm ki, bundan sonra banklar bu amili nəzərə almalı, sözügedən sahəyə sərmayə qoymalıdırlar. Banklar iqtisadiyyatın tələblərinə uyğun rəqabət qabiliyyətlərini artırmalıdırlar".

*Vidadi ORDAHALLI*

**Hər kəsin bankı olduğunu iddia edən "Unibank" dollar kreditlərinə görə kompensasiya almalı olan vətəndaşları incitməkdə davam edir. Dünən sosial şəbəkələrdə üç jurnalistin bu barədə şikayətləndiyinin şahidi olduq. Həmkarlarımız Samirə Səfərova, İlkin Muradov, Aytən Məmmədova, Gülcahan Mirməmməd prosesdən narazılıq ifadə ediblər.**

# "Unibank" Prezidentin Fərmanı əsasında kompensasiya almış jurnalistdən hələ də aylıq ödəniş tələb edir

## *Maliyyə kompensasiyalarının ödənişində "Unibank"dan narazılıqlara daha çox rast gəlinir...*

Jurnalistlərin yazdıqlarından məlum olur ki, "Unibank"ın kompensasiya ödənilməsilə bağlı apardığı prosesin yalnız bir istiqaməti deyil, bütün təşkilati işlərində problemlər yaşanır. Biz ictimai rəyə təsir imkanları olan həmkarlarımızın narazılığını görüb, ictimailəşdirə bilirik. Amma bu o demək deyil ki, sözügedən bankdan olan şikayətlər bununla bitir. İndi görün nə qədər sayda narazı vətəndaşlarımız var ki, onlar öz səslərini heç yerə çatdıra bilmir. Jurnalistlərin kompensasiyaların ödənilməsinin həyata keçirilməsi ilə bağlı prosesdən etdiyi narazılığa diqqət edək. Həmkarımız Samirə Səfərova yazır ki, "Unibank" ona son haqsızlığını da etmiş olub: "Açıqlanan kompensasiya məbləğindən karta düz 297 manat az məbləğ yüklənib. Qəribədir ki, bank hələ də məndən ödəniş tələb etməyi dayandırmayıb. Hər gün zəng edib pul ödənişi istəyir".

Digər jurnalist İlkin Muradov isə şikayətini belə ifadə edib: "Dollar kreditlərinə görə kompensasiya ödənişində ən biabırçı vəziyyəti "Unibank" yaratdı. Bildiyim qədəri ilə müştəriyə ən gec mesajı bu bank göndərib. Kompensasiya ödənişini ən gec edən banklardan biridir. Dünən atama da mesaj gəlib, bankın "Dərnəgül" filialına çağırıblar. Səhər 9:40-da atamı bankda düşürdüm. Növbə götürəndə 207-ci adam idi. Saat 12:50-də növbə çatıb. Həmin ərəfədə artıq 500-cü adam da növbədə olub. Biabırçılıq yaradıblar. Təsəvvür edin ki, Sumqayıtdan, Bakı kəndlərindən də hamını bu filiala yığıblar, özü də bir günə. Mesaj göndərib hamını bir gündə çağırıblar. Bütün bunlar azmış kimi, bankdan təqdim edilən kartda pul yoxdu, pulun karta köçəcəyi gün də bəlli deyil".

Digər xanım jurnalist Aytən Məmmədova isə şikayətini belə dilə gətirib:"Unibank"a krediti gecikdirən kimi hər gün bezdirirdilər, nəslimdə o adam qalmırdı ki, zəng eləyib deməsinlər (bu, bank sirrinin pozulmasıdır, o da ayrı məsələ). Mənə çatası kompensasiyaya görə isə hələ də zəng eləməyiblər. "Bank of Baku"dan isə aprelin təxminən 20-si olardı, zəng eləmişdilər, dedilər, ayın axırına qədər zəng eləyəcəyik, nömrəni açıq saxlayın, bu biri ayın ortasıdı, xəbər yoxdu. İndi "Bank of Baku"-dan 101 manat, "Unibank"-dan da təxminən 511 manat kompensasiya alacağım var".

Daha bir jurnalist Gülcahan Mirməmməd ona kompensasiya qismində təyin olunan məbləğin azlığından şikayətçisir. Sosial şəbəkədə xanım jurnalist yazır:"Kompensasiyaların heç birini tam məbləğdə vermirlər! "Unibank"a 418 manat artıq ödəmişdik, 248 verdilər".






Əsas məlumatlar

| | |
|---|---|
| Ad, soyad və ata adı: | SAMİRƏ SƏFƏROVA MƏMMƏDHƏNİFƏ QIZI |
| Doğum tarixi: | 07/06/1959 |
| Şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi | AZE13993727 |
| Fərdi identifikasiya nömrəsi | 1MHNJ5K |
| | |
| Cəmi hesablanmış kompensasiya | 3451.07 |
| Güzəştə görə kompensasiya məbləğinin azaldılan hissəsi | 22.71 |
| Borcların ödənilməsinə yönəldilən hissə | 0.00 |
| Vətəndaşa çatan hissə | 3451.07 |
| Restrukturizasiya məbləği | 0.00 |




***Elşən Allahverdiyev:** "Heç bir bank əsaslandırılmamış şəkildə vətəndaşa təyin edilən kompensasiyanın məbləğini azalda bilməz"*

***Sülhiyə Şirinova:** "Mən kiminsə şəxsi bank məlumatlarını sizə verə bilmərəm"*

Göründüyü kimi, edilən şikayətlərdə diqqət çəkən ən vacib məqamlardan biri bankın vətəndaşa açıqlanan məbləğdən az vəsait ödəməsidir. Bütün bu suallara aydınlıq gətirmək üçün Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat xidmətinin rəhbəri Elşən Allahverdiyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ola bilsin, kiçik anlaşılmazlıq yaranıb: "Heç bir bank əsaslandırılmamış şəkildə vətəndaşa təyin edilən kompensasiyanın məbləğini azalda bilməz. Vətəndaş portaldan bu məlumatları ala bilər. Orda qeyd olunur ki, vətəndaşın özünə nə qədər veriləcək, yönəldilmələr nə qədərdi. Sadə dillə izah edək. Məsələn, vətəndaşa 400 manat kompensaiya verilməlidir. Orda mütləq qeyd edilir ki, güzəştə yönəldilən məbləğdən 50, 100 manat hara tutulur. Tutulan pulun səbəbi mütləq mənada göstərilməlidir. Əgər portalda heç nə qeyd edilmirsə, onda vəsait plastik karta tam köçürülməlidir. Kompensasiyanın məbləği 500 manata qədərdisə nağd verilir. Ondan yuxarıdırsa karta köçürülür. Məbləğdən yönəltmə müxtəlif profilli ola bilər. Məsələn, 10 gündən artıq ödənişin gecikməsinə görə yazılan faizlər tutula bilər. Vaxtilə bankın etdiyi güzəşt nəzərə alınıb ordan vəsait götürülə bilər. İstənilən halda, bankın borcudur ki, bunu əsaslandırsın. Ancaq bu məlumatları yalnız şəxsin özü əldə edə bilər".

"Unibank"ın mətbuat xidmətinin rəhbəri Sülhiyyə Şirinova isə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu tip suallara onlar yalnız rəsmi sorğu əsasında cavablandıra bilər: "Hər bir müştəri ilə bağlı fərqli vəziyyət yarana bilər. Biz bütün müştərilərlə bağlı məlumatı bilməyə bilərik. Bu səbəbdən də bizə rəsmi sorğu göndərilməlidir. Biz yalnız bir telefon zəngi ilə Samirə xanımın məlumatlarını sizə açıqlaya bilmərik. Bu konfidensial məsələdir. Bunu ümumi mövzu olaraq işləmək istəyirsinizsə, bizə rəsmi sorğu ilə müraciət edilməlidir. Bu müştəri sirridir. Sizə xoş olar ki, məlumatlarınız icazəniz olmadan kiməsə verilsin? Bu həm etik deyil, həm də qanunvericilik buna imkan vermir. Bir daha qeyd edirəm ki, mən kiminsə şəxsi bank məlumatlarını sizə verə bilmərəm".

Yuxarıda təqdim etdiyimiz şəkillərdən birində Maliyyə Bazarlarına Nəzarət Palatasının saytında əməkdaşımız Samirə Səfərovaya kompensasiya şəklində hesablanmış məbləğ təqdim olunur. Digər fotoda isə "Unibank"dan xanım əməkdaşın telefonuna gələn SMS-i görürsünüz və şəkillərdən də göründüyü kimi, göstərilən məbləğlər arasında tam 297 manatlıq fərq var. Üstəlik, bankın əməkdaşları bugünə qədər zəng edərək, gələn ilin sentyabrına kimi ondan aylıq 120 manat ödəməyi tələb edirlər. Bu özbaşınalıq heç cür anlaşılmır.

Jurnalist Samirə Səfərova bizimlə söhbətində bildirdi ki, maraqlı situasiya ilə qarşılaşıb. Palatanın saytında ona 3451 manat kompensasiya müəyyən edildiyi halda, onun kartına cəmi 3154 manat köçürülüb. Bu azmış kimi, hər gün "Unibank"dan onun telefonuna mesaj göndərilir ki, aylıq 120 manat ödəsin. Özü də nə az, nə çox, düz gələn ilin sentyabr ayına kimi. Qəribə paradoks yaranır. Bir tərəfdən vətəndaş borcunu tam ödədiyi üçün artıq qalan hissəni dövlət ona kompensasiya şəklində qaytarır, digər tərəfdən isə bank əlavə ödəniş tələbini davam etdirir. Bunu necə izah etmək olar?

İqtisadçı ekspert Rəşad Həsənovun sözlərinə görə, bankın bu vəziyyətdə əlavə ödəniş tələb etməsi qanunsuzdur: "Çünki kompensasiya müəyyən edilir və həmin məbləğ yönəldilir vətəndaşın borcuna. Borcdan artıq qalırsa vətəndaşın hesabına pul köçürülür. İndiki halda vətəndaş bağışlanılan borcundan da əlavə pul alıbsa, ondan heç bir əlavə ödəniş tələb edilə bilməz. Sadə dildə izah edim. Vətəndaşa pul verilibsə, deməli onun borcu yoxdur. Heç bir halda ondan tələb olunan hissəni ödəməməlidir. Bu birmənalıdır! Yaxşı olar ki, bir daha banka yaxınlaşsın və bu anlaşılmazlığa aydınlıq gətirsin. Əgər ödəniş yeni kreditə görə tələb edilirsə, bank burda böyük qanunsuzluq edir".

***Məhəmmədəli QƏRİBLİ***

# Valideynlərin hər fakta görə məktəblərə "kameramanlı hücumları" artır...

**Bu gün təəssüf ki, bəzi valideynlər tərəfindən məktəbin və müəllimin nüfuzuna xələl gətirən addımların atılmasının şahidi oluruq. Müəyyən valideynlərlə məktəblər arasında müxtəlif qarşıdurmalar, söz-söhbətlər yaşanır.**

*"Müəllimin, məktəbin nüfuzunu düşünməsək, hər yerindən duran "müəllim uşağımın üstünə qışqırdı, mən məktəbə hücum edim, video çəkim və bunu sosial mediada yayım" deyəcək"*

Hətta həmin valdeyinlər övladı ilə bağlı baş verən hansısa bir xoşagəlməz hadisəni araşdırmaq, onu məktəbin özü ilə həll etmək əvəzinə, başqa vasitələrə əl atırlar. Valideynlər son zamanlar məktəblilərin intihara cəhd göstərməsinin, eləcə də intihar etməsinin əsas günahkarı kimi məktəbi hədəfə alırlar. Bir qayda olaraq, belə valideynlər iddia edirlər ki, bu halın baş verməsinin bir günahkarı var, o da məktəb və müəllimdir.

Məktəbləri hədəfə alan bəzi valideynlər uşağının müəllim tərəfindən danlanmasına, yaxud ona bildirilən hansısa bir irada görə məktəblərə hücum edir, şagirdlərin gözləri qarşısında müəllimləri, məktəbi, məktəb rəhbərliyini söyür, təhqir edir, onlarla bağlı çox ağır ittihamlar səsləndirirlər. Özü də bütün bu səhnələri kamera vasitəsilə lentə aldırır və sosial şəbəkələrdə yayırlar.

Bu günlərdə paytaxt məktəblərindən birində analoji hadisə baş verib. Hadisənin baş verdiyi məktəbin adı qeyd edilmir. Belə ki, valideyn çox kəskin ittihamlarla özünü jurnalist kimi təqdim edən insanların müşayiəti ilə məktəbə hücum çəkib və burada məktəbin, müəllimin ünvanına ağır ittihamlar, söyüşlər səsləndirib. Həmin valideyn icazəsiz şəkildə içəri daxil olur, bütün mərtəbələri gəzir, otaqları videoya çəkdirir. Valideyn iddia edir ki, onun övladını məktəb intihara cəhd etməyə vadar edib. Məktəbdən isə bildirirlər ki, o uşaq anasına aid dərmanları içərək zəhərlənib, yəni bu məsələnin məktəblə heç bir əlaqəsi yoxdur.

Bəzi valideynlərin məktəblərə kameramanlı hücumları sosial şəbəkələrdə geniş yayılıb. Qeyd etdiyimiz kimi, müəllim şagirdə bir söz deyəndə bəzi valideynlər məktəblərə hücum çəkir və bu səhnələri də lentə aldırıb yayırlar.

Əməkdar jurnalist, tanınmış media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, həmin videogörüntünü əvvəldən sona qədər izləyib. O qeyd etdi ki, istənilən valideyn övladının qayğısına qalmalı və onun problemləri ilə məşğul olmalıdır, ortada bir problem varsa, valideynin əsəbləşməyə də haqqı var: "Amma jurnalistləri götürüb zorla içəri girmək, məktəbə hücum etmək, mərtəbələri gəzmək, sinif otaqlarına soxulmaq, bu artıq birbaşa qanun pozuntusudur. Üstəlik də məktəbin normal iş rejimini pozmaqdan başqa bir şey deyil. Digər tərəfdən, bu hal pedaqoji cəhətdən də anormaldır. Çünki məktəbdə müəllimlərin, xüsusən də şagirdlərin qarşısında bu cür davranış sərgiləmək olmaz, bu yolverilməzdir. Mənim etirazım, narazılığım bunadır. Qaldı ki, əgər doğrudan da məktəbdə övladı ilə bağlı problem baş veribsə, bunu araşdırmaq valideynin borcudur, haqqıdır. O bunu istərsə məktəb rəhbərliyi ilə araşdıra, istərsə də müvafiq dövlət qurumlarına müraciət edərək bu halın araşdırılmasını tələb edə bilər. Yəni bunun sivil, mədəni, normal yolu budur. Yoxsa ki, sən bir neçə kameralı adamı götürüb birbaşa icazəsiz məktəbə daxil ol, çığır-bağır sal, təhqiramiz ifadələr işlət, bununla da dərs ritmini poz və iddia et ki, məktəb mənim övladımı intihara sürükləyib, bu cür davranış yolverilməzdir. Hər şagirdə müəllim bir söz deyirsə və o uşaq bundan intihara əl atırsa, onda bu o deməkdir ki, ailədə də problem var. Bəyəm ailədə problem olmur? Bu kimi hallarda bələ ailəni də araşdıraq. Məsələnin bu cür tərəfləri var".

*Azər Həsrət: "Jurnalistləri götürüb zorla içəri girmək, məktəbə hücum çəkmək, mərtəbələri gəzmək, sinif otaqlarına soxulmaq, bu artıq birbaşa qanun pozuntusudur"*



*"... məktəbi şagirdlərin gözləri qarşısında ittiham edirlər"*

A.Həsrət qeyd etdi ki, məktəblər jurnalistlərdən qorxur və onlarla əlaqə yaratmaq istəmir, bu da analoji hadisələrin səhv istiqamətdə mətbuatda yayılması ilə nəticələnir. A.Həsrətin sözlərinə görə, bəzi valideynlərin məktəblərə bu cür hücumları məktəbin, müəllimin nüfuzdan salınmasına xidmət edir. O hesab edir ki, müəllimin, məktəbin nüfuzunu qaldırmaq lazımdır. "Məktəbdə baş verən kiçik bir fakta görə valideynin əli kameralı şəxslərlə məktəbə hücum çəkməsi, məktəbin, dərsin ritmini pozması qətiyyən düzgün deyil. Müəllim uşağa bir söz deyən kimi valideynlər heç bir araşdırma aparmadan, müəllimlə söhbət etmədən, hadisəni araşdırmadan məktəbə hücum edir və məktəbi şagirdlərin gözləri qarşısında ittiham edirlər. Hamımız şagird olmuşuq. Biz evdə gəlib valideynə deməyə qorxurduq ki, müəllim üstümüzə qışqırdı, bizi danladı, küncə qoydu. Deseydik, valideyn deyəcəkdi ki, sənin nə təqsirin olub ki, müəllim bu addımı atıb. İndi isə belə deyil. Valideynlər bu hərəkətlərlə məktəbi şagirdlərin gözündən salır. Məktəbin, müəllimin nüfuzunu qaytarmaq lazımdır. Biz çalışmalıyıq ki, müəllim adına xələl gəlməsin. Müəllim uşağın üstünə niyə qışqırır? Ona görə qışqırır ki, bizim uşaqlar oxusunlar, savadlı olsunlar, cəmiyyətdə normal bir insan kimi öz yerini tutsunlar.

Biz müəllimin, məktəbin nüfuzunun qayğısına qalmalıyıq. Müəllimin, məktəbin nüfuzunu düşünməsək, hər yerindən duran "müəllim uşağımın üstünə qışqırdı, mən məktəbə hücum edim, video çəkim və bunu sosial mediada yayım" deyəcək. Biz məktəbin, müəllimin nüfuzunu ayaq altına atmaqla cəmiyyətimizə, Azərbaycana nə qazandırırıq? Bununla məktəbi, müəllimi məhv edirik, bu da gələcəyimiz olan uşaqların sabahının məhv edilməsi deməkdir" - deyə bildirən A.Həsrət qeyd etdi ki, məktəblər və media arasında əlaqələr gücləndirilməlidir. O hesab edir ki, tez-tez məktəblərlə media qurumları arasında görüşlər keçirilməli, bu sahədə maarifçilik işləri aparılmalıdır.

***İradə SARIYEVA***

# Baş Prokurorluq SOCAR barədə yazılar məsələsində baş redaktor Anar Məmmədovla münasibətə aydınlıq gətirdi...



**Bakı Ağır Cinayətlər Məhkəməsinin 18 mart 2019-cu il tarixli hökmü ilə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinmiş Anar Məmmədov baş redaktoru olduğu "Criminalaz.com" internet saytında və "facebook" sosial şəbəkəsinin özünə aid səhifəsində guya Bakı şəhər prokurorluğunda SOCAR-la əlaqədar məqalələrin dərc edilməsinə irad bildirilməsinə dair yalan informasiyalar yayıb.**

Həmin məlumatlar həqiqəti əks etdirmədiyindən təkzib edilir.

Baş Prokurorluqda aparılmış araşdırmalarla müəyyən edilib ki, məhkəmənin qeyd edilən hökmü ilə Bakı Şəhər Prokurorluğunda iş üzrə saxlanan maddi sübut - "MacbookPro" markalı kompyuterin hökm qanuni qüvvəyə mindikdən sonra qanuni sahibi Anar Məmmədova qaytarılması nəzərdə tutulduğundan, sonuncu müraciəti əsasında Şəhər Prokurorluğuna dəvət olunub. Aparılmış söhbət zamanı məhkəmənin hökmündən A.Məmmədov tərəfindən apelyasiya şikayəti verildiyi müəyyən edildiyindən və beləliklə hökm qanuni qüvvəyə minmədiyindən, maddi sübut ona qaytarılmayıb.

İstər 15 may 2019-cu ildə, istərsə də əvvəlki tarixlərdə Anar Məmmədova baş redaktoru olduğu internet saytında hər hansı məlumatların, o cümlədən SOCAR-la bağlı yazıların dayandırılması tövsiyə olunmayıb.

Baş Prokurorluq kütləvi informasiya vasitələrinin nümayəndələrinə bir daha xatırladır ki, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən, yalan və qərəzli yazılar, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədilə kütləvi informasiya vasitələrindən istifadə yolverilməzdir.

***Baki-xeber.com***

**Müasir dövrdə sığorta cəmiyyətin ictimai-iqtisadi həyatının bütün sahələrini əhatə etməklə, əhalinin maddi rifahının və sahibkarlıq risqinin zəmanətçisi kimi çıxış edir, gözlənilməz və fövqəladə hadisələr zamanı əmlak mənafelərinin qorunmasında, dövlətin maliyyə sisteminin möhkəmlənməsində mühüm önəm daşıyır.**

# Aqrar sığortanın zəifliyinin əsas səbəblərindən biri - aqrar sığorta kadrlarının çatışmazlığı...




*"...sığorta üçün risqlər düzgün qiymətləndirilmir"*

*Xəyal Məmmədxanlı: "Azərbaycanda kənd təsərrüfatı sığortası sahəsində ciddi mütəxəssis çatışmazlığı var"*

Sığorta nəinki sığorta hadisələri zamanı büdcəni dəymiş ziyanın ödənilməsindən azad edir, hətta uzunmüddətli investisiyaların mənbəyinə çevrilir.

İstər daşınmaz əmlak, istərsə də aqrar sektorun sığorta olunması önəmlidir. Məlumdur ki, kənd təsərrüfatı bir sıra risqlərin təsiri altındadır. Bu risqlər təbii, iqtisadi və sosial olmaqla, təhlükəsizliyi təhdid edir.

Kənd təsərrüfatında texniki tədbirlərlə qarşısını almaq mümkün olmayan risqlərin tez-tez baş verməsi, ümumiyyətlə, gəlir səviyyəsi aşağı olan fermerləri çox çətin vəziyyətə salır, onların səylərinə mənfi təsir edir. İnkişaf etmiş və inkişaf etməkdə olan bir çox ölkədə kənd təsərrüfatı sığortalarının tətbiqi ilə bu fəlakətlərin səbəb olduğu zərərlərin qarşısı alınır. Kənd təsərrüfatında təbii risqlərin başında dolu, yanğın, quraqlıq, fırtına və sel fəlakəti gəlməkdədir. Bu risqlərin yaradacağı ziyanların tamamilə qarşısını almaq mümkün deyil. Bu səbəbdən sığorta təşəbbüskarın zəmanəti olmaqdadır. Başqa sözlə, kənd təsərrüfatı sığortaları fəlakətlərə qarşı texniki tədbirlər yetərli olmadığında ziyanın aradan qaldırılması üçün zəmanət yaradır.

Danılmaz faktdır ki, Azərbaycanda kənd təsərrüfatı sığortası sahəsində müəyyən problemlər var. O problemlərdən biri və başlıcası də aqrar sığorta sahəsində kadr problemidir.

**Sığorta sahəsi üzrə ekspert Xəyal Məmmədxanlı qeyd etdi ki, Sovet dövründə də Azərbaycanda ən geniş tətbiq olunan sığorta növlərindən biri kənd təsərrüfatı sığortası olub:** "Hazırda kənd təsərrüfatı sığortası ilə məşğul olan şirkətlərin sayı olduqca azdır. Yalnız 1-2 şirkətin bu sahədə məhsulları var. Onlar fermerlərə bu sahədə müəyyən təkliflər təqdim edə bilirlər. Lakin bu, aqrar sahə üçün olduqca azdır".

Mütəxəssisin fikrincə, Azərbaycanda kənd təsərrüfatı sığortası sahəsində ciddi mütəxəssis çatışmazlığı var: "Ölkəmizdə bu sahədə mütəxəssis qıtlığı olduğundan, sığorta üçün risqlər düzgün qiymətləndirilmir. Bu gün fermer təsərrüfatlarının əksəriyyəti standartlardan geridə qalır. Ötən illərin təcrübəsi də onu göstərir ki, Azərbaycanda fermerlərə paylanan mal-qaranın bir hissəsi baxımsızlıqdan məhv olub. Bitkiçilik sahəsində də vəziyyət fərqli deyil. Fermerlər bir çox hallarda aqrotexniki qaydalara əməl etmirlər. Bu da ona gətirib çıxarır ki, aqrar sektor sığorta üçün olduqca risqli sahəyə çevrilir. Sığorta şirkətləri bu sahəyə maraq göstərmirlər".

*Günel CƏLİLOVA*

---

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Mirsalam Qənbərov mətbuata açıqlamasında deyib ki, son 3 ildə Azərbaycanda istehsal olunduğu ölkədə istismar müddəti başa çatmış və ekoloji tələblərə cavab vermədiyi üçün istifadəsi qadağan edilmiş nəqliyyat vasitələrinin sayı 2,5-3 dəfə artıb.**

# Müddəti bitmiş avtomobillər ekologiyanı məhv edir, əsasən 05, 06 "Jiquli"lər...




*Azər Allahverənov: "Reallıq ondan ibarətdir ki, belə avtomobillər həm ekologiyaya zərər vurur, həm də qəza risqini artırır"*

*Rəsul Cahangirli: "Buraxılış ilindən asılı olaraq, belə avtomobillərin istismarı qadağan edilməlidir"*

Belə nəqliyyat vasitələrinin 40 faizinin müəyyən müddətdən sonra tullantıya çevrildiyini deyən nazirlik rəsmisi qeyd edib ki, hesablamalara görə, 1991-1992-ci illərdə Azərbaycanda atmosferə atılan tullantıların 85-90 faizi stasionar mənbələrin, yəni sənaye müəssisələrinin, az hissəsi isə nəqliyyat vasitələrinin payına düşürdü. Bu gün isə bunun əksi olaraq, ölkədə atmosferə atılan zərərli qazların çox hissəsi - 75 faizə qədəri nəqliyyat vasitələrinin payına düşür.

O da məlum olub ki, sənaye müəssisələrinin daha mütərəqqi texnologiyalar əsasında yenidən qurulması nəticəsində ətraf mühitə daha az tullantı buraxılır. Ancaq köhnə nəqliyyat vasitələri ekologiyaya daha çox zərər vurur. Bu gün Azərbaycana idxal edilən nəqliyyat vasitələrinin 80 faizdən çoxu işlənmiş, ekoloji tələblərə uyğun gəlmədiyindən, istifadə olunduğu ölkələrdə istismarına qadağa qoyulan maşınlardır. İnkişaf etmiş ölkələrdə ekoloji tələblərə uyğun olmayan maşınların istifadəsi məsələsinə ciddi diqqət yetirilir, maşınların ekoloji tələblərə uyğun olması tələbi qoyulur, onlar ətraf mühit üçün problem yaratdıqda istismardan çıxarılır.

Ümumilikdə, belə avtomobillər əsasən köhnə 05 və 06 markalı "Jiquli"lərdir ki, görürsən isti havada mühərriki işə düşmür. Nəticədə yolda tıxac yaranır. Sözügedən avtomobillər ekologiyaya zərər vurmaqla yanaşı, insanların həyatı üçün də təhlükə yaradır. Çünki həmin avtomobillərin iştirakı ilə baş verən qəzaların nəticəsi daha ağır olur. O üzdən, avtomobil parkını necə yeniləmək olar?

**Sözügedən məsələni dəyərləndirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun fikrincə, avtomobil parkında ekoloji tələblərə cavab verməyən xeyli sayda belə maşın var:** "Zaman-zaman Dövlət Yol Polisi bununla bağlı ekoloji postlarda reydlər keçirir. Müşahidələr göstərir ki, belə avtomobillər həqiqətən də çoxdur. Belə avtomobil sahiblərinə bunun aradan qaldırılması ilə bağlı xəbərdarlıq edilir, əks halda isə avtomobil sahibləri cərimə olunur. Digər tərəfdən, hər il avtomobillər texniki baxışdan keçirilir. İstehsal ilindən asılı olaraq, avtomobillər texniki baxışdan keçirilir. Bununla bağlı çatışmazlıqlar aşkar olunanda avtomobil sahibinə tövsiyələr verilir. Reallıq ondan ibarətdir ki, belə avtomobillər həm ekologiyaya zərər vurur, həm də qəza risqini artırır. Belə halların qarşısını almaq üçün müvafiq qurumlar nəzarəti artırmalıdırlar. Belə avtomobil sahibləri cərimələnməlidirlər. Fikrimcə, mərhələ-mərhələ ölkənin avtomobil parkı yenilənməlidir".

**Digər ekspert Rəsul Cahangirli isə hesab edir ki, sözügedən avtomobillərin istismarına qadağa qoyulmalıdır: "Buraxılış ilindən asılı olaraq, belə avtomobillərin istismarı qadağan edilməlidir. Çünki ilbəil belə avtomobillərin sayı artır. Bu da narahatlıq doğurmaya bilməz. Xüsusən də sovet dönəmində istehsal olunan və tələblərə cavab verməyən avtomobillərin istismarı qadağan edilməlidir. Yalnız bu minvalla problemi həll etmək olar".**

*Vidadi ORDAHALLI*

# Turistlər Azərbaycandan əsasən bal və çay aparır - qiymətlər, ya istehsal artacaq?

**Son illər Azərbaycana turist axını müşahidə olunur. Azərbaycan üçün turizm baxımından prioritet olan ölkələrin İran, Rusiya, Türkiyə, Gürcüstan, Çin, Fars körfəzi ölkələri, xüsusilə də BƏƏ, Küveyt, Qətər və Səudiyyə Ərəbistanı olduğu söylənir. Nazirlikdən bildirilib ki, Fars körfəzi ölkələrindən gələnlər son illər çoxluq təşkil edir.**

***Ceyhun Aşurov:** "Azərbaycana gələn turistlər öz ölkələrinə qayıdanda ən çox çay və bal alıb aparırlar"*

***Natiq Cəfərli:** "Turistlər tərəfindən kütləvi şəkildə bal və çay alınıb xaricə aparılarsa, bu hal istehsala və qiymətə təsir edər"*

Bir qayda olaraq, kütləvi turist axını olan ölkələrdə turizm yerli əhalinin mədəniyyətinə, həyat tərzinə öz təsirini göstərir. Belə ki, hər bir turist başqa ölkəyə getdikdə öz mədəniyyətini təbliğ edir.

Təbii ki, turistlərin ölkəyə axını iqtisadiyyata, ticarət dövriyyəsinə, ölkədə fəaliyyət göstərən kafe, restoran, otellərin qazanclarına müsbət təsir göstərir. Bunu qeyd etdiyimiz obyektlərin sahibləri də təsdiq edirlər. O da bəllidir ki, hər bir turist öz ölkəsinə geri qayıdarkən istirahət etdiyi ölkədən xatirə olaraq nəsə alıb aparır. Əvvəllər ölkəmizə gələn turistlər daha çox Azərbaycan adət-ənənəsini təbliğ edən, ölkəmiz haqqında məlumatlar əks olunan xırda suvenirlərə üstünlük verirdilər. Azərbaycanı tanıdıqca, xarici turistlər ölkəmizin daha çox məhsullarını əldə etmək istəyirlər. Artıq bu sıraya Azərbaycanda istehsal olunan təbii qida məhsulları da daxildir. İndi əcnəbi turistlər bura gələrkən daha çox çay və bal məhsulu alıb aparmağa üstünlük verirlər.

Tursitlərin Azərbaycan çayı və balına maraq göstərməsi sevindiricidir. Onların ölkəmizdən alıb apardığı yerli məhsul yaşadıqları ölkədə də tanınacaq və beləliklə, çay və digər məhsullardan istifadə etmək üçün ölkəmizə gələcək xarici turistlərin sayı artacaq.

Maraqlıdır, turistlərin çay və bala maraq göstərməsi adıçəkilən məhsulların istehsalına və qiymətinə necə təsir edəcək?

**İqtisadçı-ekspert Natiq Cəfərli bizimlə söhbətində qeyd etdi ki, turistlərin Azərbaycan istehsalı olan məhsullara üstünlük verməsi sevindiricidir:** "Turistlərin Azərbaycan çayı və balını alıb öz ölkələrinə aparması ölkənin tanıdılması baxımından əhəmiyyətlidir. Turistlər tərəfindən kütləvi şəkildə bal və çay alınıb xaricə aparılarsa, bu hal istehsala və qiymətə təsir edər. Ancaq, indiki halda, turistlərin aldığı məhsulun həcmi o qədər də böyük deyil ki, həm istehsala, həm də yerli istehlakçılara təsir göstərsin. Gələcəkdə Azərbaycandan alınıb aparılan bal və ya çayın həcmi artarsa, bu, istehsalata və qiymətə də təsir edər".




Həmsöhbətimiz onu da vurğuladı ki, hər iki istiqamət üzrə ixracat da var. Çay ixracatında qeydə alınan rəqəmlər normal səviyyədədir. İqtisadçının fikrincə, Azərbaycan istehsalı olan çay və balın həm keyfiyyəti, həm də qiyməti turistləri cəlb edir.

**Turizm sahəsi üzrə ekspert Ceyhun Aşurov bildirdi ki, Azərbaycana gələn turistlər öz ölkələrinə qayıdanda ən çox Azərbaycan çayı və balını alıb aparırlar. Onun sözlərinə görə, ölkəmizə gələn turistin hansı ölkədən olması onun alıb apardığı məhsula da təsir edir. Belə ki, ölkəmizə gələn ərəb turistlərinin ən çox aldıqları məhsullar çay və baldır: "Rusiyalı və avropalı turistlərə gəlincə isə, onların Azərbaycandan daha çox suvenir alıb apardıqları bildirilir".**

Ceyhun Aşurovun sözlərinə görə, Azərbaycan mürəbbələri də turistlər arasında olduqca populyarlıq qazanıb".

***Günel CƏLİLOVA***

# Ceyranbatan anbarında kütləvi balıq tələfatı - Bakı əhalisi üçün təhlükə varmı...



**Sosial şəbəkələrdə Abşeron rayonu, Ceyranbatan qəsəbəsində yerləşən su kanalında balıqların kütləvi tələfatının qeydə alınması haqqında məlumat yayılıb.**

Adıçəkilən su kanalında balıqların kütləvi şəkildə tələf olmasının səbəblərini öyrənmək üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (ETSN) müraciət etdik. Nazirliyin Su hövzələrində bioloji resursların artırılması və mühafizəsi departamentinin direktor əvəzi Mehman Axundov bildirdi ki, su kanalında balıqların kütləvi tələf olmasının müəyyən səbəbləri var: "Kanalda suyun həcmi azalıb, bu da suda həll olunmuş oksigenin miqdarının azalmasına və beləliklə balıqların tələf olmasına səbəb olub. Xüsusilə qeyd etmək lazımdır ki, yaz-yay aylarında balıqların kütləvi çoxalma miqrasiyası zamanı Azərbaycanın bir çox su hövzəsində balıqların vaxtaşırı müşahidə edilən oxşar kütləvi tələfi su mühitində hidrofiziki göstəricilərin qeyri-optimal dəyişilməsi, bu səbəbdən ən həssas - çoxalma dövründə balıq orqanizminin bu dəyişikliklərə uyğunlaşmasının mümkün olmaması ilə bağlıdır".

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi - Mehman Axundov:** "Kanalda suyun həcmi azalıb, bu da suda həll olunmuş oksigenin miqdarının azalmasına və beləliklə balıqların tələf olmasına səbəb olub"*

***Telman Zeynalov:** "Adıçəkilən su kanalında balıqlar kütləvi şəkildə tələf olubsa və əhali də həmin kanalın suyundan istifadə edirsə..."*

**Ekoloq Telman Zeynalov bizimlə söhbətində qeyd etdi ki, Ceyranabatan su anbarında balıqların kütləvi şəkildə tələf olması təhlükəlidir:** "Adıçəkilən su kanalında balıqlar kütləvi şəkildə tələf olubsa və əhali də həmin kanalın suyundan istifadə edirsə, bu hal insanlara da mənfi təsir edəcək. Onu da nəzərə almaq lazımdır ki, kanalda olan ölü balıqlar iylənməyibsə, əhali ondan mətbəxdə istifadə edərsə, bu da insanların sağlamlığına mənfi təsir edəcək".

Həmsöhbətimiz onu da bildirdi ki, son zamanlar atmosferdə baş verən hadisələr kanalda balıqların məhv olmasına səbəb olur.

***Günel CƏLİLOVA***

# Gündəmdə qadınların "ACE"dən zəhərlənmələri...

**Qadınlar evdə təmizliyə nail olmaq üçün müxtəlif kimyəvi-təmizləyici vasitələrdən istifadə edirlər. Xüsusən də mətbəxin, ayaqyolu və vanna otağının təmizlənməsində qadınların köməyinə bu cür vasitələr çatır. Evində təmizliyə nail olmaq istəyi bəzi hallarda qadınların zəhərlənməsinə səbəb olur. Hətta təəssüf ki, bu vasitələrdən zəhərlənərək həyatını itirən qadınlara da rast gəlmək olur.**

*"Tənəffüs vasitəsilə daxil olan kimyəvi-təmizləyici maddələrin mənfi təsiri daha güclü olur"*

Məlum olduğu kimi, bu günlərdə Qobustan rayonunda evində təmizlik işləri görən qadının kimyəvi zəhərlənmədən həyatını itirdiyi bildirilir.

Qeyd edilənə görə, Qobustan rayonu, Təklə Mirzəbaba kənd sakini, 1986-cı il təvəllüdlü Səbinə Musayeva kimyəvi zəhərlənmə diaqnozu ilə Şamaxı Rayon Mərkəzi Xəstəxanasına daxil olub və orada vəfat edib. İlkin araşdırma zamanı müəyyən edilib ki, S.Musayeva mayın 13-də yaşadığı evdə "ACE" kimyəvi-təmizləyici maddədən istifadə edərək evin mətbəxini təmizlədikdən sonra özünü narahat hiss edib və axşam saatlarında xəstəxanaya yerləşdirilib. Mayın 14-də səhərə yaxın, saat 04 radələrində isə dünyasını dəyişib. S.Musayevanın ölümünün müəyyən edilməsi məqsədilə məhkəmə-tibb ekspertizası təyin edilib, Rayon Prokurorluğunda araşdırma aparılır.

Onu da vurğulayaq ki, həm "Net", həm "ACE", həm "Domestes" kimi kimyəvi-təmizləyici vasitələrdən istifadə edən qadınların bir çoxu bundan sonra baş ağrıları, ürəkbulanması, gözlərinin qıcıqlanması, boğulma kimi hallardan şikayətlənirlər.

Mütəxəssislər bildirirlər ki, qadınlar bu vasitələrdən təmizlik üçün istifadə edərkən qapı və pəncərələri açıq saxlamalıdırlar. Çox zaman bu vasitələrdən qapalı şəraitdə istifadə edildiyini deyən mütəxəssislərin sözlərinə görə, sözügedən vasitələrin tərkibindəki xüsusi zəhərli maddələr qadınların səhhətinə ciddi təsir edir və bu onların zəhərlənməsi ilə müşayiət olunur.

Kimyəvi-təmizləyici məhlul olan "ACE"nin tərkibində hansı maddələr ola bilər ki, o maddələr qadının ölümünə səbəb olub?

**Tanınmış həkim Rasif Bağırovun sözlərinə görə, ümumiyyətlə, bu kimi təmizləyici vasitələrdən istifadə edərkən ehtiyatlı olmaq lazımdır.** Müsahibimizin dediyinə görə, bütün kimyəvi-təmizləyici vasitələrin tərkibində ağır və zəhərli maddələr olur və həmin maddələr də immun sistemi zəif olan insanlara mənfi təsir göstərir. Bu vasitələrdən zəhərlənmə hallarının əsasən tənəffüs yolu ilə baş verdiyini bildirən ekspert onu da əlavə etdi ki, bunun öldürücü təsiri o zaman olur ki, həmin insanın başqa bir xəstəliyi də olsun. "Kimyəvi-təmizləyici vasitələrin tərkibi çox müxtəlifdir. Onların tərkibinə bəzi hallarda qələvi maddələr, normadan artıq turşu məhlulları əlavə edirlər. Bu da ona görədir ki, təmizlənməyə ehtiyacı olan nayihələri yandırıb parçalasın və təmizlik effekti yaratsın. "ACE" və digər kimyəvi-təmizləyici vasitələrin tərkibində qələvi və turşu məhlulların miqdarı çoxluq təşkil edir, bu da normadan artıq miqdarda orqanizmə daxil olduqda problemlər yaradır. Əgər belə adamların bədəninin müqaviməti yaxşıdırsa, immun sistemi güclüdürsə, həkimlər o şəxsə kömək edə və həyata qaytara bilir. Belə vasitələr ya tənəffüs, ya da qida vasitəsilə orqanizmə daxil olur. Bu, qida vasitəsilə daxil olduqda xəstəyə elə də ciddi təsir göstərmir və həkim müdaxiləsi sayəsində bu, aradan qaldırılır. Ancaq tənəffüs vasitəsilə daxil olan kimyəvi-təmizləyici maddələrin mənfi təsiri daha güclü olur. Çünki tənəffüs vasitəsilə daxil olanda o bilavasitə qana keçir və yüksək konsentrasiya əldə etmək qabiliyyəti yüksək olur. Bu da xəstənin orqanizmində müqavimət zəifdirsə, immun sistem gücsüzdürsə, onun həyatını itirməsinə səbəb olur. Konkret olaraq Qobustan rayonunda "ACE"dən zəhərləndiyi üçün həyatını itirən qadına gəlincə, deyə bilərəm ki, o bu vasitəni tənəffüs yolu ilə qəbul edib. Ola bilsin, tənəffüs yollarında hansısa bir xəstəlik olduğuna görə bu onun vəfatı ilə nəticələnib. Həmin xəstəlik də qıcıqlandırıcı vasitələr yolu ilə güclü şəkildə reaksiya verir. Yeni proseslər yığılır və xəstənin ölüm vəziyyətinə gətirir. Açığını deyim ki, bu xəstənin məhz "ACE"dən zəhərlənib bu vəziyyətə düşməsini nisbi qəbul edirəm. Çünki, birincisi, "ACE"dən həyatını itirdiyi deyilən qadının bütün xəstəlikləri araşdırılmalıdır. Bəlkə onun orqanizmində elə xəstəlik olub ki, ora daxil olan maddə də onunla qarşılıqlı şəkildə xəstənin vəziyyətini ağırlaşdırıb".

***Rasif Bağırov:** "ACE" və digər kimyəvi-təmizləyici vasitələrin tərkibində qələvi və turşu məhlulların miqdarı çoxluq təşkil edir, bu da normadan artıq miqdarda orqanizmə daxil olduqda problemlər yaradır"*



**R.Bağırov qeyd etdi ki, qırtlaq nahiyəsində "boz əzələ" deyilən bir əzələ var, həmin kimyəvi maddələr vasitəsilə bu əzələdə qıcıqlanma yaranır, bu da kəskin şəkildə sıxılma verir və xəstəni boğub öldürür. "Bu hamıda olmur. Ancaq bəzi adamlarda bu baş verir və o, həyatını itirir" - deyə müsahibimiz bildirdi.**

*İradə SARIYEVA*

# Bakıda quraşdırılan Formula 1 avadanlıqlarının sökülməsi bir ay çəkəcək...

**26-28 aprel tarixlərində Bakıda keçirilən Formula 1 Azərbaycan Qran Prisi ilə bağlı quraşdırılan avadanlıqların bir hissəsi artıq sökülüb. Bunu özəl olaraq "Trend"ə Bakı Şəhər Halqasının Marketinq və Kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai deyib.**




N.Arpadarai bildirib ki, yarış bitdikdən dərhal sonra artıq avadanlıqların sökülməsinə başlanıb. Onun sözlərinə görə, küçələrin bir qismi artıq təmizlənib, avadanlıqlar sökülərək anbara aparılır.

Şöbə rəhbəri vurğulayıb ki, bu işlərin təqribən bir aya yekunlaşdırılması nəzərdə tutulur: "Təqribən bir ay sonra növbəti yarışın keçirilməsinə hazırlaşacağıq. Hər zaman olduğu kimi, çalışacağıq ki, növbəti Qran Pridə də yeniliklər edək, tamaşaçılar üçün maraqlı olsun".

O qeyd edib ki, növbəti yarışın gələn ilin yay aylarında keçirilməsi nəzərdə tutulur, lakin dəqiq tarixi müəyyənləşdirmək üçün danışıqlar aparılır.

**N.Arpadarai əlavə edib ki, ümumilikdə bu dəfə də Azərbaycan Qran Prisi maraqlı keçib: "Bu il sosial şəbəkədə bizim həştəqimiz ilk onluqda idi. Bu il Qran Pri əvvəlkilərə nisbətən bir qədər sakit keçdi. Yəni əvvəlki yarışlarda çoxlu hadisələr, qəzalar baş vermişdi. Biz builki nəticələrdən çox razıyıq".**



## Türkiyədə mülk alan Azərbaycan vətəndaşlarının sayı artıb

**2019-cu ilin yanvar-aprel aylarında Azərbaycan vətəndaşları Türkiyədə 374 daşınmaz əmlak obyekti əldə edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 117 ədəd çoxdur.**

"Trend"in məlumatına görə, aprel ayında Azərbaycan vətəndaşları bu ölkədə 87 daşınmaz əmlak əldə edib ki, bu da 2018-ci ilin aprel ayı ilə müqayisədə 19 ədəd çoxdur.

Türkiyə Statistika Təşkilatının son hesabatına əsasən, ümumilikdə aprel ayında Türkiyədə 84,4 min daşınmaz əmlak obyekti satılıb. Məlumata görə, bunlardan 3,7 mini əcnəbi vətəndaşlar tərəfindən əldə olunub.

№ 88 (3986) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

17 MAY 2019-cu il

## "Azercell" ADA Universitetinin tələbələri üçün master-klass təşkil edib

**Ölkəmizin aparıcı universitetləri ilə əməkdaşlıq edən, ali təhsil mərkəzlərinin maddi-texniki bazasının zənginləşdirilməsinə yardım göstərən "Azercell Telekom" MMC mütəmadi olaraq gəncləri maraqlandıran sahələr üzrə master-klasslar keçirir.**

Növbəti belə tədbir ADA Universitetinin tələbələri üçün təşkil olunub. "Azercell"in Baş Ofisində keçirilən master-klassda ADA Universitetinin sonuncu kurs tələbələri iştirak ediblər. "Azercell"in İstehlakçı Seqment Biznes Strukturu, "CRM" bölümünün rəhbəri Emil Əmirov, İstehlakçı Seqment Biznes Strukturu, Biznesin təhlili bölümünün aparıcı mütəxəssisi Zaur Hüseynov və Korporativ Seqment Biznes Strukturu, Məhsul və Xidmətlər bölümünün mütəxəssisi Rüfət Qafarov tələbələrlə görüşərək, məhsulun yaradılması, biznes təhlili və analizi kimi vacib mövzularla bağlı öz zəngin təcrübələrini bölüşüblər. Həmçinin, İnsan Qaynaqları Departamentinin mütəxəssisləri tərəfindən iştirakçılara gənclərin peşəkar və fərdi fəaliyyətini dəstəkləmək məqsədilə yaradılan yeni "Azercell-Lab" - ödənişli təcrübə proqramının başlanması ilə bağlı məlumat təqdim olunub. Belə ki, "Azercell" iyul ayının 1-dən etibarən bakalavr və magistr tələbələri, həmçinin, bakalavr və magistr dərəcələrində ali təhsillərini artıq tamamlamış gənclərə "İT-Lab" və "Biznes-Lab" inkubasiya mərkəzləri vasitəsilə peşəkar mühitdə karyera qurmaq imkanları, şirkət tərəfindən həyata keçirilən layihələrdə iştirak və əvəzolunmaz təcrübə qazanmaq fürsətləri yaradır. Məruzəçilər sonda iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

"Azercell Telekom" MMC təhsilə və gənclərin inkişafına hər zaman xüsusi qayğı ilə yanaşıb. Bir sıra ali təhsil ocaqları ilə əməkdaşlıq memorandumları imzalayan şirkət tələbələrin innovativ ideyalarının reallaşdırılmasına, onların təcrübəli və peşəkar kadr olaraq yetişdirilməsinə öz töhfəsini verib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Qurbanov Qurban Namiq oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Cəfərov Ruhin Xəyal oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Axundzadə Şəfəq Bəhmən qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Kuzmin Pavel Fyodoroviçin adına, Bakı şəhəri, Səbail rayonu, Ş.Allahverdiyev küçəsi, ev 4, mənzil 1 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Həşimov Zülfüqar Məhəmməd oğlunun adına, Cəbrayıl RHK tərəfindən verilmiş M/V № 067972 müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əzimli Murad Ağakişi oğluna Azərbaycan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abbasov Elşad Məhərrəm oğlunun adına, Abşeron rayonu, Masazır kəndi, "Qurtuluş 93" yaşayış massivi, ev 23, mənzil 20 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

## Ayın ölçüləri kiçilir - Alimlərdən böyük zəlzələ xəbərdarlığı...



**Araşdırmalar nəticəsində məlum olub ki, yerin təbii peyki olan Ayın ölçüləri müntəzəm olaraq kiçilməkdədir.**

Milyon illər ərzində ayın sahəsi 45 metr kiçilib. Bu barədə "Nature Geoscience" məlumat yayıb. "Oxu.az" bildirir ki, alimlər 1960-1970-ci illərdə Aydakı dəyişiklikləri qeydə alan seysmoqrafların məlumatlarını 2010-cu ilin geoloji xəritələri ilə müqayisə etdikdən sonra belə qərara gəliblər. Həmçinin qeyd edilib ki, Ayda seysmik aktivlik fəaliyyətini davam etdirir.

Bunun nəticəsində Ayın nüvəsi soyuyur və peyk sıxılır. Bu fenomen Ayda yeni böyük zəlzələlərin və böyük çatların yaranmasına gətirir. Qeyd edək ki, Ay Yer kürəsinə müəyyən dərəcədə təsir gücünə malikdir və bu təlatümlər Yerdə də öz əksini tapa bilər.

## Kosmosa göndərilən ilk heykəllə əlaqə kəsildi

**Nevada İncəsənət Muzeyi dekabr ayının əvvəllərində "SpaceX"in "Falcon 9" raketi ilə "Orbital Reflector" adlı heykəli kosmosa göndərdi.**

"Chip.az" bildirir ki, heykəl peykdən çıxaraq almaz şəklində bir balonun içərisində açılacaq şəkildə hazırlanmışdı. Beləliklə, günəş şüaları Yer üzünə əks olunacaq və asanlıqla görünəcəkdi. Lakin altı həftəlik tədqiqatın dayandırılması zamanı peyki izləmək mümkün olmadı və balon şişirdilmədi. Nəticədə, peyk ilə bütün əlaqə kəsilir. "Orbital Reflektor" orbitə yerləşdirildikdən 18 gün sonra ABŞ prezidenti Donald Trump ölkənin tarixində ən uzun hökumətin bağlanılmasına qərar verir. Hökumətin bağlanmasına səbəb Trump və ABŞ Konqresinin ABŞ ilə Meksika arasında salınacaq divar üçün 5,7 milyard dollarlıq federal maliyyələşdirmə barədə razılığa gəlməməsi idi. Muzeyin Federal Rabitə Komissiyası (Federal Rabitə Komissiyası) işini dayandırdığı üçün balonu şişirdmək iqtidarında deyildi. Federal Rabitə Komissiyası orbitdə baş verənləri müəyyənləşdirməkdə və dünyadakı peyklərlə əlaqə baxımdan mühüm rol oynayır. Qeyd edək ki, bundan sonra planların nə olduğu, orbitə yeni heykəl göndərilib-göndərilməyəcəyi barədə heç bir açıqlama verilməyib.

## Süni neyronlardan ibarət kompüter çipi yaradılıb

**Alimlər tərəfindən işlənib hazırlanmış çip insan beynini xatırladan kompüterlərin yaradılmasının əsasını təşkil edə bilər.**

"ICTnews" bildirir ki, ənənəvi kompüter ayrıca yaddaş və prosessor modullarına malikdir, bununla əlaqədar olaraq bütün məlumatlar həmin modullar arasında ötürülməlidir. İnsan beyni bu cəhətdən, hətta ən müasir kompüterləri geridə qoyur, çünki o, informasiyanı bir yerdə (neyronlar arasında birləşmələrdə və ya sinapslarda) emal edir və saxlayır. Almaniya və Böyük Britaniyadan olan alimlərdən ibarət beynəlxalq komanda insan beynini xatırladan kompüterlərin yaradılmasının əsasını təşkil edə bilən aparat təminatı yaratmağa müvəffəq olub. Alimlər işıqla işləyən, neyron və onların sinapslarının davranışını təqlid edən süni neyron şəbəkəsindən ibarət çip istehsal etməyə nail olublar. Alimlər belə optik neyrosinaptik şəbəkənin beyin kimi informasiyanı öyrənmək, ondan hesablama və tanımaq üçün istifadə etmək qabiliyyətini nümayiş etdiriblər.





**Qoç** - Günün ilk yarısında qeyri-adi işin, rutin olmayan tapşırığın öhdəsindən gəlmək olar. Yorulmadan çalışa bilərsiniz. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün mümkün qədər fəal olun.



**Buğa** - Rahatlıq, istirahət, əyləncə barədə fikirləri təxirə salın. Gəlirləri artırmaq şansları yaranır. Tələbatlar da çoxalır. Aktiv və enerjili olsanız, məqsədə daha tez çatacaqsınız. Tənbəllik etməyin.



**Əkizlər** - Öhdəliklər və vədləri yerinə yetirmək zamanıdır. Bunu etməsəniz, kəskin mübahisə yarana bilər. Formallıqdan uzaq durun, sərbəst və azad qrafiklə çalışın. Ünsiyyətdə səmimi olun.



**Xərçəng** - Ənənəvi fəaliyyət metodları ilə artıq öyrəşdiyiniz vasitələrin effektivliyi azala bilər. Yaxın ətrafınızdakı insanların əhvalından xəbərdar olun. Maddi imkanlarınız yol verərsə, yeni layihəyə başlaya bilərsiniz.



**Şir** - Çox yaxşı və xoş keçirə biləcəyiniz əla gündür. Çətin işdən qorxmayın. Bu gün istənilən məsələni həll etmək gücündəsiniz. Gün yaradıcı insanlar - musiqiçilər rəssam və yazıçılarla ünsiyyət üçün münasibdir.



**Qız** - Gərgin, amma maraqlı gün olacaq. İşlərin çox olması sizi qorxutmasın. Ruhdan düşməyin. Dəf edilməsi mümkünsüz sədd və ya maneə yoxdur. Əməyinizin nəticələrində maraqlı olun.



**Tərəzi** - Nə istədiyinizə qərar vermədən heç nəyə nail ola bilməyəcəksiniz. Tərslikdən, öz arzularınızı müəyyənləşdirmək olduqca çətindir. Yaşlı nəslin nümayəndələri ilə mübahisələr mümkündür.



**Əqrəb** - Gəlirlər və ümumiyyətlə, maddi məsələlər tərəfdaş, yaxud şəriklə mübahisələr yarada bilər. Hər məqamda şəxsi rəğbət və ya fərdi üstünlük amillərinə əsaslanmayın. Situasiyanı tələsmədən, soyuqqanlı şəkildə təhlil edin.



**Oxatan** - Ən yaşı məziyyətlərinizi nümayiş etdirin, aqressiv və sərt olmayın. Əvvəlki uğurlarınızdan istifadə edərək yeni mərhələyə keçidlə bağlı çətinlikləri mümkün qədər azaldın.



**Oğlaq** - Maddi çətinliklərin və problemlərin sayı artır. Gəlirlərin həcmi və maddi rifah durumunuz sizi təmin etmirsə, pul əldə etməyin yeni yollarını arayın. Gəlirlərlə xərclər arasındakı balansı qoruyun.



**Dolça** - Günün ilk yarısında işlərə enerji ilə başlayın, aktiv olun. Əsas məsələni qoyub xırda məqamların həllinə izafi diqqət ayırmayın. Yaxın ətrafınızdakı insanlarla fəal əməkdaşlıq edin.



**Balıqlar** - İnadla və qətiyyətlə çalışsanız, fəaliyyətiniz yaxş nəticələr verə bilər. Situasiyadakı dəyişiklikləri intuitiv olaraq hiss edin. Fərqlərə bilavasitə dəlalət edən anlar və ya məqamlar zəif olsa belə, diqqətli davranın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "WhatsApp"ın məxfi xidmət orqanları ilə əməkdaşlıq etdiyi iddia edilir

**"Telegram"ın yaradıcısı Pavel Durov "WhatsApp" messencerinin istifadəçilər üçün heç vaxt təhlükəsiz olmadığını və olmayacağını bəyan edib.**

"Oxu.az" xəbər verir ki, bununla bağlı sosial şəbəkədə "Nə üçün "WhatsApp" heç vaxt təhlükəsiz olmayacaq?" (ing. Why WhatsApp Will Never Be Secure) başlıqlı köşə yazısı dərc olunub. "Telegram" yaradıcısının bildirdiyinə görə, "WhatsApp" rəhbərliyi ekspertlərin istifadəçilərə qarşı olan etinasız münasibəti ifşa etməməsi üçün qeyri-şəffaf fəaliyyət göstərir. "Hər dəfə "WhatsApp" öz tətbiqində kritik həssaslığı aradan qaldıranda onun əvəzinə yenisi peyda olur. Onların təhlükəsizliklə bağlı bütün problemləri "bekdorlar" (back door - alqoritm nöqsanı) kimi işləyir", - deyə Durov yazıb. Durovun sözlərinə görə, İran və Rusiya kimi dövlətlər bu messencerin işinə hər hansı əngəl yaratmır və bu, "Facebook" və "WhatsApp" rəhbərliyinin məxfi xidmət orqanları ilə əməkdaşlıq etməsinə işarədir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.